KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 30 (178), 6 - 12 Avqust, Tebax sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiymәti: 40 qəpik
Hêjaye:

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



## İlham Əliyev Böyük Britaniyaya işgüzar səfərə gəlmişdir



Səh. 13

## Serokê Herêma Kurdistanê pêşwaziya Dr. Eyad Elawî û Dr. Ehmed Çelebî kir



Səh. 16

## Конституция и диалог - решение для всех иракских политических кризисов, считает Нечирван Барзани



Səh. 12

## PKK Suriyanı ələ keçirib?



Səh. 13

## Hemû Kurd wê li dijî Tirkiyê dest bi şer bikin



Səh. 9

## "Kürdlər Bəşər Əsəddən sonrakı Suriyadan öz paylarını almaq istəyirlər"

Barış ve Demokrasi Partisi BDP 2008

Səh. 15

## ПМД в Шемдинли: война – не решение курдского вопроса

## ABŞ Suriya sərhədində hərbi fəallığını artıran Türkiyəyə xəbərdarlıq edib

Səh. 2

## BMT Baş Assambleyasında Suriya üzrə qətnamə layihəsi müzakirəyə çıxarılıb

Səh. 3

## 1905-06-cı illərdə erməni-müsəlman davasında Kürd xalqının rolu

Səh. 8

## Azərbaycanın etnik mənzərəsi: narahatçılığa əsas varmı?

Səh. 4

## KÜRD LİDERDƏN ŞOK AÇIQLAMA

Səh. 9

## Davudoğlunun qalmaqallı İraq səfəri

Səh. 7



Səh. 5

## Kofi Annan istefaya gedir



Səh. 6

## Suriyadan nə doğulacaq?



Səh. 10

## Ərdoğan güc strukturlarını təcili bir araya topladı



Səh. 7

## BƏŞƏR ƏSƏD KİMYƏVİ SİLAHLARI SƏRHƏDƏ YIĞIB

www.diplomata-kurdi.com



# İlham Əliyev Bakının Bülbülə qəsəbəsindəki 268 nömrəli körpələr evi-uşaq bağçasının əsaslı yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur

Prezident İlham Əliyev Bakının Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsindəki 85 nömrəli tam orta məktəbin yeni korpusunun açılış mərasimindən sonra Bülbülə qəsəbəsindəki 268 nömrəli körpələr evi-uşaq bağçasının əsaslı yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.

2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin və uşaq bağçalarının əsaslı təmir və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq Suraxanı rayonunun Bülbülə qəsəbəsindəki 268 nömrəli körpələr evi-uşaq bağçası da əsaslı şəkildə yenidən qurulmuşdur.

Dövlət başçısına 268 nömrəli körpələr evi-uşaq bağçasında görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, bağçanın binası 1989-cu ildə inşa olunub, Azərbaycan Prezidentinin tapşırığı ilə 2012-ci ildə əsaslı şəkildə yenidən qurulub. Bağçada 240 nəfərdən ibarət 12 qrup fəaliyyət göstərir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra körpələr evi-uşaq bağçasında hər cür şərait yaradılıb. Uşaqların yataq otaqları, əyləncə yerləri, mətbəx və digər sahələr ən müasir standartlar səviyyəsində yenidən qurulub.

Körpələr evi-uşaq bağçası ilə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.

# İlham Əliyev Yeni Suraxanı qəsəbəsindəki R.Abdinov adına 85 nömrəli tam orta məktəbin yeni korpusunun açılış mərasimində iştirak etmişdir

Bakının Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsindəki R.Abdinov adına 85 nömrəli tam orta məktəbin yeni korpusunun açılış mərasimi olmuşdur.

Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Bakının kənd və qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin icrası ilə əlaqədar dövlətimizin başçısı paytaxtın Suraxanı rayonunda görülən işlərlə tanış olarkən Yeni Suraxanı qəsəbəsinin sakinləri 85 nömrəli orta məktəbin bir korpusunun tamamilə yararsız vəziyyətdə olduğunu bildirmiş və bu tədris ocağının yenidən qurulmasına kömək göstərilməsini xahiş etmişdilər.

Prezident İlham Əliyev yeni korpusun inşa olunması ilə bağlı yerindəcə göstərişlər vermişdi. 2011-ci ilin iyulunda dövlətimizin başçısı məktəbin kollektivi ilə birlikdə yeni tədris korpusunun təməlqoyma mərasimində iştirak etmişdi. Üç mərtəbədən, 27 otaqdan ibarət yeni korpusun tikintisi qısa vaxt ərzində müasir tələblər səviyyəsində başa çatdırılmışdır.

Prezident İlham Əliyev yeni korpusun rəmzi açılışını bildirən lenti kəsdi.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi. İnşa olunan yeni korpusda 480 şagird təhsil alacaqdır.

Üç korpusdan ibarət 85 nömrəli məktəbdə ümumilikdə 840 şagirdin təhsil aldığı bildirildi. Dövlətimizin başçısı yeni korpusun foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin təhsil sahəsində gördüyü işləri əks etdirən fotostendə baxdı. Burada şagirdlərin təhsil almaları üçün bütün şəraitin yaradıldığı vurğulandı. Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarına və fənn kabinetlərinə baxdı, buradakı şəraitlə yaxından tanış oldu.

Fizika, kimya və digər fənn kabinetlərinin, təcrübə laboratoriyalarının tədris üçün lazım olan ən müasir avadanlıqla təchiz olunduğu qeyd edildi. Məktəbin ərazisində yeni dərs ilinə qədər idman və akt zallarının, yeməkxananın inşa olunacağı da nəzərdə tutulur. Ərazidə açıq idman meydançasının salınacağı da vurğulandı. 85 nömrəli məktəbin yeni korpusunda yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.

# Rusiya və Britaniya Suriya prezidentinə daha çox təzyiq etməyə razılaşıblar

BMT və Ərəb Liqasının Suriya üzrə xüsusi təmsilçisi Kofi Annan Bashar Assad rejimini ölkədəki böhranı ancaq sülh yoluyla həll etmək üçün qəti addımlar atmağa çağırıb. Asadla görüşdən bir gün əvvəl verdiyi açıqlamada Annan Houla kəndində çoxu qadınlar və uşaqlar yüzdən çox adamın qırılması faktından dəhşətə gəldiyini bildirib.

BMT mayın 25-də baş vermiş həmin hadisədə 33-ü uşaq olmaqla 108 nəfərdən çox dinc sakin həlak olub. 300 nəfərdən çox adam da yaralanıb. Şahidlər tank və artilleriya atəşindən tələfat daha çox olduğunu deyirlər.

Suriyanın müxaliflər olan yaşayış məskənlərinin bəzilərinin hökumət qoşunları tərəfindən atəşə tutduğu bir vaxtda Britaniya və Rusiya Xarici İşlər nazirləri William Hague və Sergei Lavrov Suriya rəhbərliyinə təzyiqi artırmaq üçün razılıq əldə ediblər.



Moskvada keçirilən görüşdən sonra nazirlər bildiriblər ki, Houlada 108 nəfərin öldüyü qırğından sonra Dəməşqin qoşunlar və döyüş texnikasını yaşayış məntəqələrindən geri çəkməyinin vacibliyini düşünürlər.

Suriya hökuməti bu qırğını müxalifətin siyahlı qüvvələrinin törətdiyini iddia edir. Bunu inkar edən müxalifət isə elə bu gün – mayın 28-də də Hama şəhərinə artilleriya hücumu nəticəsində 30-dan çox adamın həlak olduğunu bildirir.

Lavrov deyib ki, BMT-Ərəb Liqasının sülh planının ən vacib elementlərindən biri də budur. Ancaq Rusiyalı nazir Britaniyalı həmkarının Suriya prezidenti Bashar al-Assad-i istefaya dəvət etməsi çağırışını dəstəkləməyib. Deyib ki, zorakılığın dayandırılması hakimiyyətin kimin əlində olmasından daha vacibdir. Və bütün tərəfləri zorakılığı dayandırmağa və siyasi danışıqlara başlamağa çağırıb.

Keçən ilin əvvəlində Suriya dinc mitinqlərə hökumət qüvvələrinin silahlı müdaxiləsi az sonra ölkə boyu qanlı toqquşmalara səbəb olub. BMT indiyə qədər 10 min nəfərə yaxın adamın həlak olduğunu bildirir.

# ABŞ Suriya sərhədində hərbi fəallığını artıran Türkiyəyə xəbərdarlıq edib



Suriya sərhədində hərbi fəallığını artıran Türkiyəyə ABŞ-dan xəbərdarlıq gəlib. SalamNews-un "Anadolu" agentliyinə istinadla verdiyi xəbərə görə, ABŞ Dövlət Departamentinin nümayəndəsi Patrik Ventrell təşkil etdiyi mətbuat konfransında məsələ ilə bağlı deyib: "Türkiyənin milli təhlükəsizlik maraqlarını güddüyünü çox gözəl anlayırıq. Amma hazırda vəziyyəti daha çox hərbiləşdirmənin çıxış yolu olduğunu düşünmürük. Suriya mövzusunda türk müttəfiqlərimizlə mütəmadi məsləhətləşmələr aparırıq".

**SalamNews.az**

# Türkiyə Suriya sərhədinə tank yeritdi



Türkiyə Silahlı Qüvvələri Mardin vilayətinin Suriya sərhədi yaxınlığında yerləşən Nusaybin rayonunda sərhədin 2 kilometrliyində tank təlimi keçirib. Publika.Az-ın məlumatına görə, təlimi ölkənin bir çox yüksək rütbəli komandirləri izləyib. 25 tankın qatıldığı təlim Türkiyə tarixinə ilk tank təlimi kimi düşüb. Rəsmilər bu təlimin son vaxtlar Suriya sərhədində fəallaşan kürd terrorçularına qarşı keçirildiyini bildiriblər.

**Publika.Az**

# Region hazırda olduqca qeyri-sabit dövrünü yaşayır

*Əhməd Davudoğlunun Kərkükə səfəri Türkiyənin təhlükəsizliyinin müdafiəsinə yönəlib*



Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunun İraqın Kərkük əyalətinə səfəri Türkiyənin təhlükəsizliyinin müdafiəsinə yönəlib. Səfər İraqın mərkəzi hökumətinin narazılığına səbəb olub. Bu barədə İraq Türkmənləri Assosiasiyasının rəhbəri Mithat İbrahim bildirib. "Region hazırda olduqca qeyri-sabit dövrünü yaşayır. Belə mühitdə Davudoğlunun Kərkükə səfəri ölkədə təhlükəsizliyin qorunmasına yönəlmiş addımdır", - İbrahim deyib. Onun sözlərinə görə, İraq hökumətinin bu səfərə qarşı çıxmağa heç bir əsası yoxdur. Çünki səfər Türkiyə hökuməti və Kürd muxtariyyəti tərəfindən planlaşdırılıb və müzakirə edilib. "Ölkənin təhlükəsizliyini təmin etmək üçün Türkiyə rəhbərliyi səfərlər edə və bu məqsədlə istənilən addımlar ata bilər. Bağdadın bu səfərlə bağlı narazılığı əsassızdır", - İbrahim qeyd edib.

Bir gün əvvəl Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu Kürd muxtariyyətinə səfəri çərçivəsində əsasən İraq türkmənlərinin yaşadığı Kərkük əyalətinə baş çəkib. Davudoğlunun bu səfəri İraqın mərkəzi hökumətinin narazılığına səbəb olub. Belə ki, bu barədə Bağdada bildiriş təqdim edilməyib. Xüsusən İraqın Xarici İşlər Nazirliyi bəyan edib ki, Türkiyənin bu addımı İraqın daxili işlərinə müdaxilə kimi qiymətləndirilir.

***xezerxeber.com***

# BMT Baş Assambleyasında Suriya üzrə qətnamə layihəsi müzakirəyə çıxarılıb



Səudiyyə Ərəbistanı bir sıra Qərb ölkələri ilə razılaşdırılmış şəkildə hazırladığı Suriyada münaqişənin həll edilməsi üzrə qətnamə layihəsini BMT Baş Assambleyasının qeyri-rəsmi iclasının müzakirəsinə çıxarıb. SalamNews-un İTAR-TASS-a istinadən verdiyi xəbərə görə, qətnamə beynəlxalq ictimaiyyəti Ərəb Dövlətləri Liqasından (ƏDL) nümunə götürməyə və Suriyaya qarşı sanksiyalar tətbiq etməyə çağırır.

Layihədə vurğulanır ki, Baş Assambleya "indiyədək sanksiyalara qoşulmamış BMT-yə üzv ölkələri Suriyaya qarşı ƏDL-nin 2011-ci il noyabrın 27-də qəbul etdiyi sanksiyaları timsalında sanksiyalar tətbiq etməyə çağırır". ƏDL sanksiyaları Suriya rəhbərliyinin ərəb ölkələrindəki hesablarının dondurulmasını, rəsmi Dəməşq və ölkə bankları ilə iqtisadi əlaqələrin dayandırılmasını, həmçinin, hava əlaqəsinin kəsilməsini nəzərdə tutur.

Sənəddə Suriya hakimiyyətindən "insan hüquqlarının pozulması və dinc əhaliyə qarşı hücumların dərhal dayandırılması", həmçinin, ağır hərbi texnikadan istifadəyə son qoyulması tələb olunur. Qətnamə layihəsi münaqişə tərəflərini zorakılığı dayandırmağa və "xalqın istəyinə cavab verən keçid prosesi üçün münbit şərait yaratmağa" çağırır.

Sənəddə həmçinin, iyulun 3-də ƏDL-nin rəhbərliyi altında Qahirədə keçirilmiş konfransı dəstəkləyərək, " Suriya hakimiyyətinin kimyəvi və bioloji silahdan istifadə etmək hədələrindən" narahatlıq ifadə olunur.

***SalamNews.az***

# Suriyada Hafiz Əsədin heykəli uçuruldu



Suriya hökumət qoşunları üsyançıları sıxışdırıb çıxarmağa çalışır. Dəməşq və Hələbdə döyüşlər gedir. Ağır silahlardan və vertolyotlardan atəş açan hökumət qüvvələri Dəməşqin Bərzəx rayonuna hücum ediblər. Müxaliflərin sözünə görə, Əsədin qoşunları onları Mezzeh rayonundan sıxışdırıb çıxara bilib.

Hal-hazırda Hələb şəhərini ələ keçirmək üçün üsyançılar şiddətli döyüşlər aparır. Bazar gününə küçən gecə rejim əleyhdarları Əsədin atası Hafiz Əsədin heykəlini uçura biliblər. Döyüşlərdən biri təhlükəsizlik qüvvələrinin Hələbdə yerləşən böyük bazasının ətrafında gedir.

"Amerikanın səsi"nə istinadən bildirir ki, BMT baş katibi Pan Gi Mun Suriya prezidenti Bəşər Əsədi sərt tənqid edərək onun hökumətinin "vətəndaşları qorumadığını" və döyüşlərin "ölkəni dağıtdığını" deyib.

"Suriyada situasiya sürətlə pisləşir, – deyə cənab Pan Xorvatiyaya səfərində bildirib. – Bütün ölkə boyu, o cümlədən paytaxtda döyüşlər intensivləşdikcə çox sayda insan əzab çəkir. Ölənlərin sayının artması və insanların evlərindən didərgin düşməsi məni narahat edir".

Əsəd hökumətinin dinc nümayişçilərə basqıları bütün ölkəni bürüyən üsyana yol açıb. Suriya boyu vüsət alan döyüşlər ölkənin kürdlər məskunlaşdığı ərazilərinə də yayılıb.

Bir müddət münaqişədən kənarda durmuş kürdlər yaşadıqları ərazilərdə nəzarəti ələ almağa başlayıblar. Kürd Koordinasiya Komitəsi adlanan müxalifət qrupu Amuda və Qobani qəsəbələrinin Azad Kürd Ordusunun nəzarəti altına keçidklərini xəbər verir. Üsyançılar hazırda ən iri kürd şəhərlərindən biri olan Qamışlını tutmağa can atırlar.

Xatırladaq ki, ötən həftə Dəməşqdə törədilmiş partlayış nəticəsində prezident Bəşər Əsədin yaxın çevrəsinə daxil olan, Suriyanın bir qrup yüksəkrütbəli siyasi və hərbi fiquru həlak olmuşdu.

Bu arada Britaniyada mənzillənən Suriya İnsan Haqları monitorinq qrupu ötən ilin mart ayından bəri Suriyada azı 19,106 adamın həlak olduğunu bildirib. Ölənlərdən 13,296 adam silaha əl atmış mülki əhalidir, 4,861 adam təhlikəsizlik sistemi əməkdaşları və 949 nəfər ordu fərariləridir.

***RƏŞAD, hurriyyet.net***



# Bərzani-Davutoğlu görüşü

Xarici işlər Naziri Əhməd Davutoğlu, "Bərzani ilə görüşmə müsbət idi. Regional rəhbərlik mesajımızı aldı" dedi. Xarici işlər Naziri Əhməd Davutoğlu, İraq Regional Kürd Rəhbərliyi Başçısı Məsud Bərzani ilə görüşdü.

Regional hökumətə aid Ağ evdə keçirilən görüş, jurnalistlərin müsahibəsindən sonra mətbuata bağlı olaraq davam etdi. Davutoğlu, görüşün ardından verdiyi açıqlamda, "Bərzani ilə görüşmə müsbət idi. Regional rəhbərlik mesajımızı aldı" dedi. Davutoğlu, "Çox əhatəli məsləhətləşmələr aprdıq. Suriya başda olmaq üzrə terrorla mübarizə mövzusunda qarşılıqlı fikir mübadiləsi etdik" dedi. Erbildəki səlahiyyətlilərlə həm görünənləri həm də qayğılarını paylaşdıqlarını ifadə edən Davutoğlu, "Fikrimiz dəqiqdir" dedi. Əhməd Davutoğlu, "Birlikdə bəzi addımların atılması mövzusunda anlayış birliyimiz var" deyə əlavə etdi. Görüş sonrası verilən açıqlamda da "bütöv və azad Suriya üçün çalışacağıq" deyildi.

# İraq Türkiyəyə nota verdi




Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunun İraq hakimiyyəti ilə razılaşdırılmadan Kərkük vilayətinə səfəri rəsmi Bağdadın etirazına səbəb olub Bu, Ankaraya ünvanlanan etiraz notası ilə nəticələnib. CNN Türk-ün verdiyi xəbərə görə, Türkiyənin İraqdakı səfiri Yunus Dəmirər bu ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb. Səfirə Davudoğlunun İraq rəsmilərinin razılığı olmadan Kərkük vilayətinə səfəri ilə bağlı narazılıq bildirilib.

Öz növbəsində, İraqın Ankaradakı səfiri Kabil ət-Tabih də Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb və ona nota təqdim olunub. Notada bildirilir ki, Türkiyə təxribat xarakterli addımlar atmır, dövlətin siyasəti şəffafdır və gizli planları yoxdur. Avqustun 2-də Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu Kürd müxtariyyətinə səfəri zamanı əsasən İraq türkmanlarının yaşadığı Kərkük vilayətində olub.

# Suriya müxalifəti İsrailin humanitar yardımından imtina edib

İsrail Suriya müxalifətinə humanitar yardım təklif etsə də, müxalifət onu qəul etməkdən imtina edib. Bunu İsrailin xarici işlər naziri Aviqdor Liberman türk jurnalistlərinə müsahibəsində bəyan edib. Trend-in məlumatına görə, bu barədə Türkiyənin "Star" qəzeti yazır.

BMT-nin məlumatına görə, Suriyada münaqişə qurbanlarının ümumi sayı 17 min nəfərdir. 230 minə yaxın insan qaçqına çevrilib, bir milyona yaxın insanın humanitar yardıma ehtiyacı var. Suriya hakimiyyəti bəyan edir ki, onlar yaxşı silahlanmış yaraqlılarla mübarizə aparırlar.

# Azərbaycanın etnik mənzərəsi: narahatçılığa əsas varmı?




**III yazı**

Rəsmi kommunist ehkamının bəyan etdiyi "bütün insanlar qardaşdırlar" tezisi sinifi mübarizədə də yeganə vasitə kimi istifadə edilirdi. Təxminən 186 xalqı özündə birləşdirən Sovet imperiyası bu halqanın dağılmaması üçün "Bütün ölkənin proletariatını birləşdirmək" şüarından da istifadə edirdi. Sovet dövrü etnomühitinin bu günə nisbətən daha sabit olması heç kimə sirr deyil. Bütün xalqlara eyni - "Sovet vətəndaşı" prizmasından baxan kommunist ideologiyası etnomühitin sabit durumuna mənfi təsir göstərən amillərdən həmişə yan keçib. Baxmayaraq ki, hər bir etnik azlıq ayrı-ayrılıqda təhlil olunub, onların inkişaf dinamikası nəzərdən qaçırılmayıb. Amma bütün bunlar barədə cəmiyyət heç vaxt məlumatlandırılmayıb. Elə bir şərait yaradılıb ki, milli azlıqları əhatə edən sosial təbəqə də öz növbəsində bu kimi məlumatları mənimsəməyə belə maraq göstərməsin.

Bir az sonra – yəni 90-cı illərdə isə bütün keçmiş ittifaq respublikalarında vəziyyət tamamən fərqli idi. Azərbaycanda da həmçinin… Yəni topluma daxil olan həm türkə, həm də qeyri-türkə ictimai mühitdə yanaşma eyni olub, etniklə, qeyri-etnik arasında fərq qoyulmayıb. Bu nüans istər ölkə qanunvericiliyində, istərsə də sonralar Azərbaycanın qoşulduğu beynəlxalq Konvensiyalarda əsas prinsip kimi götürülüb.

Heydər Əliyev və milli siyasət...

1993-cü ildən sonra milli azlıqların spesifik məsələlərinə ağır, iqtisadi çətinliklər içində yaşayan Azərbaycanda dövlət səviyyəsində kompleks və müntəzəm qayğı göstərmək ənənəyə çevrildi. Etnik tərkibi müxtəlif Azərbaycanda milli münasibətlər faktorunun vacibliyi daimi nəzərə alındı. Tarazlı milli siyasət kursu, milli azlıqların ən kiçik qayğılarından tutmuş ciddi sosial problemlərinə qədər bütün məsələlərinin həlli Kremlin barmaq silkələməsinə görə deyil, 1994-cü ildən sonra Prezident Heydər Əliyevin iradəsi ilə həyata keçirilirdi. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin və s. qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Bu məqsədlə onlara müntəzəm şəkildə maliyyə yardımları göstərildi. Milli azlıqların mədəni mərkəzləri kommunal xərclər, kirayə haqqı ödənilmədən yerlə təmin olundular. Onların əlifbaları, doğma dillərində dərslikləri hazırlandı, kitablarının, qəzetlərinin nəşri üçün dövlət büdcəsindən vəsait ayrıldı, respublika radiosunda, yerli özəl televiziyalarda və qəzetlərdə doğma dillərində veriliş və materiallar hazırlanmasına şərait yaradıldı, müxtəlif konfessiyaların hamısının sərbəst və azad fəaliyyət göstərməsinə tam hüquqi təminat verildi.

Hidayət Orucov özünün "Heydər Əliyev və Azərbaycanda milli siyasət" (Bakı, 2001, səh 42) məqaləsində yazır: "Altmış-səksəninci illərdə icazə verilməyən milli siyasət kursu iki aspekti əhatə edirdi: mövcud normalar, münasibətlər daxilində Kreml rəhbərlərinin direktivləri əsasında həyata keçirilən assimilyasiyanın (həm azərbaycanlıların, həm də milli azlıqların) qarşısını almaq, etnik münaqişə üçün hazırlanan zəminə qarşı mübarizə aparmaq. Hər iki aspekti əlaqəli, paralel şəkildə aparılırdı, sonuncu aspektə isə xüsusi diqqət yetirilirdi. Mahiyyətini, məramını elan etməklə müstəqil siyasi kursu həyata keçirmək qeyri-mümkün olduğundan xalqı görülən işlərə inandırmağa istinad edilirdi. Qayğı əyani şəkildə həyatın bütün sahələrində qabarıq nəzərə çarpırdı. Məsələn, Dağıstanla müqayisədə Azərbaycanda yetişmiş, yaşayıb-yaradan ləzgi ziyalılarının sayı dəfələrlə çoxdur. Milli azlıqların nümayəndələri, o cümlədən ləzgilər ictimai-siyasi, milli-mədəni, sosial-iqtisadi həyatın bütün sahələrində təmsil olunublar".

Qeyd etmək lazımdır ki, Azərbaycandakı azsaylı xalqların tərkibində son illər bir dəyişiklik də müşahidə olunmuşdur: bu da milli etnosların (ləzgi, talış, kürd, tat, və s.) yenidənqurma dövründə milli şüurun və özünüdərk hissinin oyanması ilə bağlıdır. Bu, 1979 və 1989-cu illər siyahıyaalınmasında özünü göstərmişdir. Azərbaycan həmin xalqlar üçün tarixi vətən olmuşdur. Bu etnoslar arasında elələri (buduq, xanalıq, udin) var ki, min illər ərzində Azərbaycanda yaşayaraq, adət və ənənələrini qoruyub saxlamış, dillərini və mədəniyyətlərini inkişaf etdirmişlər.

2001-ci il noyabrın 1-də Prezident Heydər Əliyev Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı ilkin hesabatın hazırlanması və təqdim edilməsi barədə Sərəncam imzaladı. Sərəncam bütövlükdə Avropa Şurasının "Milli azlıqların müdafiəsi



haqqında" Çərçivə Konvensiyasına Azərbaycan Respublikasının qoşulmasını nəzərə alaraq və həmin Konvensiyanın müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının öz öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə ilkin hesabatın hazırlanması və Azərbaycan Respublikası Hökuməti adından Avropa Şurasının baş katibinə təqdim olunmasını təmin etmək məqsədi daşıyırdı.

Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının öz öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə ilkin hesabatının hazırlanması üçün İşçi qrupu da yaradıldı. Qeyd edək ki, İşçi Qrupunun rəhbəri xarici işlər nazirinin müavini Xələf Xələfov idi. İşçi Qrupun ölkənin bütün rəsmi strukturlarını təmsil edən 10 üzvü var idi. İşçi qrupuna tapşırılırdı ki, üç ay müddətində bu Sərəncamın 1-ci bəndində göstərilən ilkin hesabatın layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən ilkin hesabatın hazırlanıb baxıldıqdan sonra həmin Çərçivə Konvensiyasında nəzərdə tutulmuş qaydada Avropa Şurasının baş katibinə göndərilməsini təmin etsin.

Moskva dövründə olduğu kimi, ondan sonra müstəqil Azərbaycanda da Heydər Əliyev azərbaycançılıqla yanaşı, beynəlmiləlçilik ruhunu və milli azlıqlara diqqəti müdafiə edirdi. Azərbaycan əhalisinin tərkibində 20-dən artıq xalq, milli azlıq, etnik qruplar yaşayır ki, onlar da müxtəlif dil qruplarına aiddirlər.

Millət vəkili, həm də milli azlığın nümayəndəsi olan Mixail Zabelin "Heydər Əliyev – Ümummilli lider" kitabına (Bakı 2004. Səh-149) təqdim etdiyi məqaləsində yazır: "Bu ölkədə elə milli azlıqlar var ki, onlar sayca cəmi bir neçə nəfəri özündə birləşdirir və kompakt olaraq yalnız bu ölkədə yaşayırlar. Bu etnik qruplardan hər hansı birinin itirilməsi əslində bütün bəşəriyyət üçün əvəzsiz itki olardı".

Şübhəsiz ki, belə bir təhlükə onlar üçün Azərbaycanda yox idi. Bir sıra beynəlxalq təşkilatlar öz sənədlərində qeyd edirlər ki, azərbaycanlıların onlarla bərabər bir torpaqda yaşayan xalqlara qarşı tolerantlığı etalon hesab edilə bilər. Həqiqətən də bu xalqa məxsus olan mehriban qonşuluq, dini və etnik dözümlülüyü davam etdirməklə mövcud hakimiyyət dillərin, dinlərin, etnik psixologiyaların, ənənələrin inkişafına həmişə böyük önəm vermişdir. Bu gün Azərbaycan radio verilişlərinin ləzgi, talış, kürd, gürcü və digər dillərdə səslənməsi, tat, ləzgi, udin, xınalıq və digər dillərdə dərsliklərin çap edilməsi dövlətin Azərbaycanda yaşayan milli azlıqların hüquqlarının qorunması sahəsində ardıcıl və məqsədyönlü siyasətin davam etdiyini təsdiq edir.

Ölkənin ictimai-siyasi həyatındakı demokratik dəyişikliklər Azərbaycanda yaşayan azsaylı xalqlara olan marağın artmasına şərait yaradır. İnsan hüquqlarının müdafiəsi, müxtəlif etnos və etnik qrupların saxlanılması yalnız sosial - mədəni deyil, həmçinin siyasi əhəmiyyət daşıyır. Dövlətin milli siyasəti yalnız ayrı-ayrı etnos və xalqlara deyil, milli mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarının həyatının bütün sahələrində bərabərhüquqlu inkişafına xidmət edir.

Bu gün Quba rayonu ərazisində yerləşən xınalıq, buduq, qrız, kimi, Qəbələ rayonu ərazisində yerləşən Niç kimi, İsmayıllı rayonu ərazisində yerləşən Lahıc və İvanovka kimi, Zaqatala rayonu ərazisində yerləşən Katex və Əliabad kimi, Lerik rayonu ərazisində yerləşən Qosmolyan kimi azsaylı xalqların yaşayış məskənləri açıq səma altında etnoqrafik muzeylərə və turist marşrutlarına çevrilə bilər.

Azərbaycanda ən azsaylı millətlərin nümayəndələri belə icmalarda birləşə, öz mədəniyyət, dil və adət-ənənələrini inkişaf etdirə bilərlər. Onlar heç bir dini və milli ayrı - seçkiliyə məruz qalmırlar. Azərbaycanda üç əsas dini cərəyan – islam, xristianlıq və iudaizm qarşılıqlı hörmət şəraitində fəaliyyət göstərir.

Qəbələ rayonunda azsaylı udin xalqı yaşayır. Onların öz həyat tərzi və tarixləri vardır. Bu millətin nümayəndələri deyirlər: "Tanrı özü dualarımızı eşidərək Heydər Əliyevi bizə göndərmişdir. İndi biz özümüzü azad və sərbəst hesab edirik."

Millət vəkili Mixail Zabelin "Heydər Əliyev – Ümummilli lider" kitabına (Bakı 2004. Səh-153) təqdim etdiyi məqaləsində davam edərək yazır: "Heydər Əliyev Azərbaycanda normal həyatı bərqərar etmək, millətlərarası sülhə nail olmaq, sosial-iqtisadi inkişafı təmin etmək, xalqlar və ölkələrarası münasibətləri tənzimləmək nəsib oldu. Başqaları buna nail ola bilmədi. Heydər Əliyev isə bacardı. Buna görə də xalq ona Dahi Beynəlmiləlçi, müsəlman dünyasının lideri, "Qafqazın Atası" adını verdi." Heydər Əliyev milli azlıqların nümayəndələri ilə keçirdiyi görüşlərinin birində demişdir: "Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər də zəngin olar…"

Və yaxud da Heydər Əliyev deyirdi: "…Mən görüşlərimi milli azlıqların nümayəndələri ilə görüş adlandırmaq istəməzdim. Bu, Azərbaycanın, Azərbaycan xalqının nümayəndələri ilə görüşüdür…" .

***Niyaz Niftiyev***

# Bəşər Əsəd Türkiyədən necə intiqam almaq istəyir



Suriyada kürdlərin çoxluq təşkil etdiyi yaşayış məntəqələrində Bəşər Əsəd rejiminə sadiq əsgərlər geri çəkildikcə PKK və Kürd bayraqları dalğalanmağa başlayır. PKK-nın Suriyada birdən-birə belə gücə necə sahib olduğu isə xüsusən də Türkiyə mediasının cavab axtardığı suallardandır.

**Suriyadakı kürd qruplaşmaları necə birləşdi?**

Türkiyənin "Vatan" qəzeti mövzuya geniş yer ayıraraq yazır ki, Suriyadakı kürdlər Suriya Kürd Milli Şurası (KNC) adı altında 2011-ci ilin 26 oktyabrında Şimali İraqın Ərbil şəhərində imzalanan razılaşma ilə birləşiblər. Şimali İraq kürd hökumətinin lideri Məsud Bərzaninin vasitəçiliyi ilə bir araya gələn 16 Suriyalı kürd qrupu Abdul Hakim Başarı KNC-nin rəhbəri seçib və birgə hərəkət etməyə qərar verib.

PKK-nın Suriyadakı qolu olan PYD isə KNC ilə müzakirələrdə razılığa gələ bilməyib və müstəqil hərəkət etməyə qərar verib. PYD ilə KNC Əsəd rejimi kürd bölgələrindən çıxandan sonra ortaq mövqeyə gələ biliblər. Afrin, Derik və Kobani kimi böyük kürd şəhərlərində Əsəd rejiminin çəkilməsi ilə rəsmi qurumların binaları üzərindəki bayraqları ortasında günəş olan "Kürdüstan" bayrağı və PYD-nin təşkilat bayrağı yanaşı əvəzləməyə başlayıb. Bundan başqa KNC bəyanat verərək Suriyadakı bütün kürd qrupların artıq "ən kiçik belə ayrılıq olmadan" bir araya gəldiyini elan edib. PYD isə "Xalq Müdafiə Birlikləri" (YPG) adını alaraq KNC-nin silahlı qanadına çevrilib. Daha sonra 2 min PKK silahlısı bu kürd şəhərlərinə yerləşdirilib və nəzarət-buraxılış məntəqələri yaradılıb.

**Kürdlər yerli hökumətləri niyə rahat ələ ala bilir?**

Kürdlər ələ keçirdikləri şəhərlərdə rəhbərliyi də rəsmi olaraq təhvil aldıqlarını bəyan ediblər. Eyni zamanda kürd bölgələrinin rəhbərliklərini bir ələ toplayan "Yuxarı komitə" və təhsil, səhiyyə, təhlükəsizlik sahələrində fəaliyyət göstərəcək "Aşağı komitələr" yaradıldığı da elan edilib.

Baş verənlərin maraqlı tərəflərindən biri də odur ki, bütün Suriya boyu və paytaxt Dəməşqdə Əsədin qoşunları ilə ağır müharibə aparan Azad Suriya Ordusu da kürd bölgələrinə buraxılmır. Suriyadakı hadisələrin əvvəlindən ölkə müxalifətinin qurduğu Azad Suriya Ordusu hazırda bu bplgədə baş verənləri sakitcə izləmək məcburiyyətindədir. Müxaliflərin Türkiyədə yaratdığı Suriya Milli Şurası ilə KNC arasında aylardır davam edən görüşlər kürdlərin muxtariyyət tələbi üzündən iflasa uğramışdı. Buna görə də müxaliflər kürd bölgələrinə əsgər göndərmək istədikləri zaman KNC-dən "Biz özümüzü qoruyacağıq" cavabını aldılar. Suriya ordusundan qaçan 650 kürd əsgəri də Azad Suriya Ordusuna yox, Ərbilə - Bərzaniyə bağlı hərbi təlim düşərgələrinə üz tutub, orada hazırlandıqdan sonra isə kürd şəhərlərinə göndəriliblər.

Suriyalı kürdlər indi paytaxt olaraq gördükləri Qamışlını Əsəd rejimindən almaq üçün əməliyyata hazırlanır. Bərzaniyə yaxınlığı ilə tanınan kürd qəzeti "Rudau"ya danışan PYD səlahiyyətliləri deyiblər ki, Əsəd rejiminin Qamışlıdakı rəhbərliyi həyatlarının bağışlanması qarşılığında yerli hökuməti kürdlərə təhvil verməyə hazırdır. Bununla belə Əsəd rejiminə bağlı nizami ordunun Qamışlı ətrafında əhəmiyyətli gücü var. Buna görə də KNC-dən bildiriblər ki, Qamışlının alınması bir neçə gün sürə bilər.

**Bəşər Əsəd kürdlərin əlilə Türkiyədən qisas almaq istəyir**

İsrail kəşfiyyatına yaxınlığı ilə tanınan "Debka" saytı kürdlərin yaşadıqları bölgələrdə hakimiyyəti belə asanlıqla ələ almalarını Bəşər Əsədin Türkiyədən intiqam almaq istəyi kimi şərh edib. Saytın yazdığına görə, Əsəd PKK-nın kürd bölgələrində özünü göstərməsinə bilərəkdən imkan yaradır. "Debka" yazır ki, Dəməşqdə Milli Təhlükəsizlik Mərkəzindəki partlayışla nazirlərini və yaxınlarını itirən Bəşər Əsəd olaya görə Türkiyənin məsuliyyət daşıdığını düşünür və bu səbəbdən də Türkiyəni çətin vəziyyətə salmaq üçün PKK kartından istifadə edir. İddiaya görə Əsədin əsgərləri Kürd bölgələrindən məqsədli şəkildə, hər hansı ciddi hücumə məruz qalmadan çəkilir. Məqsəd Suriyanın Türkiyə ilə sərhəd bölgəsində PKK-ya rahat hərəkət zonası qazandırmaq, bu terror təşkilatın Türkiyəyə hücumları Suriya torpaqlarından rahat koordinasiya edə bilməsinə imkan yaratmaqdır.

*azadliq.info*

## MƏHKƏMƏDƏN ŞOK QƏRAR: KÜRD ADLARI OLMAZ



Türkiyə məhkəmələri də verdikləri qərarla hər kəsi şoka sala bilir. Belə ki, dünən Diyarbəkirdə mərkəz Kayapınar Mahalında Bələdiyyə Məclisinin Mədəniyyət Mərkəzinə Kürd şair 'Cegerxwin' adının verilməsi ilə 19 parka verilən Kürtçə olan adlar İdarə Məhkəməsi tərəfindən ləğv edilib.

PİA.AZ Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə Məhkəmənin bu qərarıma kürdlərlə yanaşı türklərin özləri də etiraz edib. Mətbuat bu qərarı bir xalqın varlığı şübhə altına alması kimi qiymətləndirib.

## Suriyalı qaçqınlar Türkiyədə üsyana başladılar



Qaziantepin İslahiyə rayonunda Suriyalıların yerləşdiyi çadır düşərgəsində suriyalılar üsyan qaldırıblar. Onlar türk bayrağını endirib Suriya bayrağını düşərgənin girişində ucaldıblar. Suriyadan qaçan 1500 nəfər türkmənin çadır düşərgəsinə yerləşdirilməsinə etiraz edən suriyalı qaçqınlar, türk rəsmiləri ilə əvvəlcə mübahisə ediblər, sonra isə düşərgədəki polislərin tərk-silah edərək girov götürüblər. Düşərgədəki texniki vasitələrə zərər verən qaçqınların üsyanının yatırmaq üçün qonşu rayonlardan kömək çağrılıb. Xüsusi Təyinatlı Polis dəstələri tezliklə vəziyyətə nəzarəti ələ alıblar və düşərgə tam nəzarət altına götürülüb. Hadisə zamanı 4 jandarma və 4 mülki vətəndaş yaralanıb. Xüsusi Təyinatlılarla bərabər düşərgəyə girən mülki türklər yenidən Suriya bayrağını endirib Türk bayrağını qaldırıblar.

## Kofi Annan istefaya gedir

BMT və Ərəb Dövlətləri Liqasının Suriya üzrə xüsusi təmsilçisi Kofi Annan istefaya hazırlaşır. Rusiya mətbuatının yaydığı məlumata görə, BMT-nin baş katibi Pan Gi Mun artıq Annanı əvəz edə biləcək şəxsi axtarır.

İş ondadır ki, K.Annanın BMT baş katibinin Suriya üzrə xüsusi təmsilçisi kimi mandatı avqustun 31-dək nəzərdə tutulub. O, mandatının müddətini artırmaqdan imtina edib.

*newspaper.az*

# PKK-ya xəbərdarlıq – "Əsədi dəstəkləməyin, yoxsa sizi yox edərik"



Azad Suriya Ordusu Səlahəddin Eyyubi Birliyi görüntülü bir bəyanat yayaraq PKK-ya sərt şəkildə xəbərdarlıq edib. SalamNews-un Haberturk-ə istinadən verdiyi xəbərə görə, Səlahəddin Eyyubi Birliyi komandanını verdiyi açıqlamada deyilir: "Azad Suriya ordusu qatil PKK-ya – "Əsədi dəstəkləməkdən əl çəkin, yoxsa sizi yox edərik", deyə xəbərdarlıq edib. Ümumilikdə, kürdlər yaşayan bölgələrdə, xüsusilə Afrin bölgəsində, qatil PKK tərəfindən törədilən vəhşiliklər son günlər artıb. Belə ki, qatil PKK qüvvələri Əsəd qoşunları ilə birlikdə kürd vətəndaşlarımızı öldürür və oğurlayır. Qatil PKK gücləri Suriya xalqının üsyanını dəstəkləyən kürd qardaşlarımızı hədəfə almaqdadır və sonuncu dəfə dünən Afrin rayonunda qatil PKK qoşunları mülki kürd vətəndaşlarına hücum edib və qarşıdurmalar baş verib. Qatil PKK-çılar evlərə hücum edir, vətəndaşların avtomobillərini yandırır və dinc insanları öldürməyə çalışır.

Məlum olsun ki, biz hələ bölgəyə bütün gücümüzlə müdaxilə etmədik və kürdlərin bir-birinə qarşı çıxmaması üçün dünən geri çəkildik".

Açıqlamada daha sonra deyilir: "Biz, Səlahəddin Eyyubi Birliyi olaraq qatil PKK-ya xəbərdarlıq edir və Suriya xalqının yanında olduğumuzu bir daha bəyan edirik. Suriyalıların üsyanı qırmızı xəttdir və qarşımızda duran hər kəs hədəfimizdə olacağını bilməlidir. Milliyətindən asılı olmayaraq, heç kimə rəhm edilməyəcək, heç kim özbaşınalığa əl atmasın və Suriya bayrağından başqa bir bayraq qaldırmasın. Əsəd qoşunlarına qarşı bölgədəki bütün əməliyyatları biz keçirirk və qatil əsəd qoşunlarına qarşıdan gələn günlərdə daha ağır zərbələr vuracağıq. Bütün həbsə alınanların azadlığa buraxılmasını tələb edirik və qatil PKK-nın qatil Əsədi dəstəkləməkdən əl çəkməsini tələb edirik".

*bizimxeber.az*

# Suriyadan nə doğulacaq?

Ərəb dövlətlərində baş verən dəyişikliklər həm də özü ilə yeni problemlər gətirməkdədir.

Problemlərdən biri də həmin dövlətlərin siyasi xəritəsinin dəyişməsidir. Bunlardan biri artıq mövcuddur - Sudanın ikiyə parçalanması. Ona görə də Yaxın və Orta Şərqdəki dəyişikliklərin dünyanın siyasi xəritəsini dəyişdirəcəyi də istisna olunmur.

Onu da nəzər alaq ki, dünyanın siyasi xəritəsi əsaslı şəkildə ikinci dünya savaşından sonra dəyişməyə başlayıb.

Ötən əsrdə dünyanın aparıcı gücləri dünyanın siyasi xəritəsini dəyişmək üçün biri-birinin ərazisində müharibə aparır və ya buna çalışırdılarsa, indi bu savaş üçüncü dövlətlərin ərazisində getməkdədir. Bu baxımdan, dünyanın savaşsız bir günü olmayıb.

Ərəb dövlətlərindəki dəyişikliklərin əsasında «Böyük Orta Şərq» layihəsinin durduğu da istisna edilmir. Həmin layihəyə əsasında bölgə dövlətlərinə demokratiyanın gətirilməsi ilə yanaşı, milli müqəddəratın həlli məsələsinə də yer verildiyi görünməkdədir. Təəssüf ki, elə bölgədə sabitliyi pozan başlıca məsələlərdən biri də budur.

Dəyişiklik ilk növbədə 2003-cü ildə İraqdan başladı. Həmin hadisələrdən 10 ilə yaxın vaxt ötsə də bu ölkədə hələ də partlayış səsləri eşidilməkdədir. Ölkə faktiki olaraq, parçalanıb. Onun Şimalında kürdlər de-fakto öz dövlətlərini qurub. Bundan başqa İraqın prezidenti də bu etnik qrupun nümayəndəsidir. Birinin «milli müqəddəratının» tanınması başqa etnosun, türklərin (türkmanların) haqqının pozulması ilə müşayiət edilməkdədir.

Belə görünür, dünyadakı kürd hərəkatı İraqın Şimalından idarə edilməkdədir. Vəziyyətin bu hala çıxmasında qonşu dövlətlərin, o cümlədən Türkiyə və İranın da rolu az olmayıb. Tehran hakimiyyəti illər uzunu terrorçu PKK-nı Türkiyəyə qarşı dəstəkləyib. İraqın edam edilmiş prezidenti Səddam Hüseynin acığına isə İraqın indiki başçıları Tələbani və Bərzanini dəstəkləyib. Bu prosesi indi də fərqli şəkildə davam etməkdədir.

İraqın şimalındakı kürd bölgəsi ilə İslam Respublikasının Kürdüstan əyaləti arasında iqtisadi-ticarət sahəsində əməkdaşlığa dair danışıqlar aparılır, görüşlər keçirilir. Bir müddət öncə İran hakimiyyəti İraqın Şimalındakı muxtariyyatla mədəni əməkdaşlığa dair anlaşma imzalayıb.

Göründüyü kimi, ərəb dövlətlərindən ikisində yaranmış vəziyyət hələ ki, kürdlərin xeyrinə işləməkdədir. İndi növbədə Suriyadır.

Bir neçə ay öncə İraqın şimalındakı muxtariyyatın başçısı Məsud Bərzani mərkəzi Bağdadda yerləşən «əl-Şərqiyyə» televiziya kanalına müsahibəsində bildirmişdi: «İllərdir kürdlərə qarşı bir zülm edilib. Kürdlər də bir gün birləşəcəklər. Biz də başqaları kimi bir millətik. Fars, ərəb, türklərdən əskikliyimiz yoxdur. Ərəb milləti neçə dövlət arasında bölünüb. Kürdüstan da neçə dövlət arasında bölünüb və kürd dövlətinin yaranmasına heç vaxt icazə verilməyib. Zorla bölünənlər 40 il sonra yeni birləşdi. 40 illik ayrılmadan sonra kürd etnosu gün gələcək birləşəcək və öz taleyini həllə edəcək... Hər kəs bu müjdəni gözləyir. Bu müjdə hər an açıqlana bilər… Biz bu yolda zorakılığa qarşıyıq…».

Bu günlərdə Şimali İraq Muxtariyyatının başçısı M.Bərzani ilk dəfə "Əl-Cəzirə" telekanalına müsahibəsində suriyalı kürdlərə hərbi təlim keçdiklərini etiraf edib. Suriyaya iraqlı kürd silahlılarının göndərildiyini təkzib edən Məsud Bərzani deyib ki, Suriyada baş verən proseslərə qarışmaq istəməsələr də, əksəriyyəti Suriya ordusundan qaçaraq İraqa gələn kürd gənclərə hərbi təlimlər keçirlər. O, iddia edib ki,



hələ bu kürdlər Suriyaya göndərilməyib, lakin Suriyada ciddi təhlükəsizlik problemi yaranacağı halda ora göndəriləcəklər. Məsud Bərzani bildirib ki, hərbi təlim keçən kürdlər Suriyadakı kürd qrupların az əvvəl yaratdığı Ali Komitənin əmrində olacaqlar: "Hətta buna gərək olmasa belə, o insanlar sonda Suriyaya qayıdacaqlar. Çünki həmin insanlar o bölgənin insanlarıdır".

Lakin informasiya agentliklərində, saytlarda yayımlanan görüntülər Məsud Bərzaninin yalan danışdığını üzə çıxarıb. Görüntülərdə Şimali İraq Kürd Muxtariyyətinin ərazisindəki Zaho şəhərinin içindən keçən Dəclə çayı sahilindəki Dera Bir qəsəbəsində hərbi geyimli minlərlə kürd gənc yüyürərək Suriya sərhədini keçir. Əllərində silah olmasa da, yüksək təpələrdə bu insanları qoruyan silahlı əsgərlər olduğu da görünür. Görüntünün mobil telefonla çəkildiyi anlaşılır. Həmin kürdlər deyirlər ki, Suriyada kürd muxtariyyətinin mərkəzi kimi gördükləri Qamışlı şəhərini almağa gedirlər...

Deməli, İraqda olduğu kimi, Suriyadan da bir «Kürdüstan» çıxır.

Ötən ayın ortalarında Suriya Kürdüstan Milli Assambleyasının prezidenti Şerkoh Abbas İsraildə çıxan «Yerusalem post»-a telefonla müsahibə verib. O, müsahibəsində amerikalıların «kürdlər Suriya Milli Şurası ilə əməkdaşlıq etməlidir» ideyasını tənqid edib.

O, qətiyyətlə bildirib ki, Suriya mütləq «etnik bölgələrə parçalanmalıdır». «Çeşidli etnik qruplardan federal əsaslara dayanacaq dövlət qurulmalıdır. Yalnız bu yolla Suriyanı İranın təsirindən çıxarmaq mümkündür» - deyə, Assambleyanın başçısı söyləyib.

O deyib ki, «federasiya» kürdlər, druzlar, ələvilər və sünnilərin muxtariyyatı əsasında yaranarsa, o halda Suriya «İranla müttəfiqlikdə maraqlı olmaycaq». Onun sözlərinə görə, federallaşmış Suriyada sələfilər və «müsləman qardaşları»nın hökmranlığı altında sünnilərin teokratik rejimi qurula bilməz.

Abbas hesab edir ki, Suriyanın parçalanmasında ona və başqa təşəbbüskarlara İsrailin «böyük yardımı» olar. Onun qənaətincə, etnik və din əlamətlərinə görə 4-5 bölgəyə bölünərək federallaşmış Suriya İsraillə radikal şiə və sünnilər arasında «təbii bufer» rolunu oynaya bilər.

Abbasın ideyası ərəblər arasında ciddi müzakirə olunmaqdadır. Amerikalı tarixçi Bernard Lüis guya «İslam dünyasının parçalanması planı»nı tərtib edib. Həmin plana görə, Suriya, İraq, Livan, Misir, Sudan, İran, Türkiyə, Əfqanıstan, Pakistan, Səudiyyə Ərəbistan və Şimali Afrikanın başqa dövlətləri parçalanacaq.

Ş.Abbasın boşuna danışmadığı baş verənlərdən də görünməkdədir. İyunun əvvəlində Assambleyanın rəhbərliyi ABŞ Dövlət Departamentinin təmsilçisi, o cümlədən ABŞ-ın Dəməşqdən geri çağırılmış səfiri Robert Ford və prezident Barak Obama administrasiyasının Suriya üzrə əlaqələndiricisi Fred Xofla görüşüb.

Onda kürdlərə məxsus mətbuat yazmışdı ki, Abbas Xofu və Fordu «Kürdüstan dövlətinin yaradılmasını tanımağa» çağırıb: «Bu «dövlət» Suriyada yaranacaq muxtar bölgənin İraqın Şimalındakı kürd muxtariyyatına birləşməsi ilə yarana bilər. Bu da Böyük Kürdüstanın yaranması ilə nəticələnər».

Abbas daha sonra bildirib: «Kürdüstanın bütün hissələrindən (Suriya, İraq, İran, Türkiyədə kürdlərin məskunlaşdığı bölgələri nəzərdə tutur - S.S.) kürd etnosu Böyük Kürdüstanın yaranmasına ümid edir. Biz bu ali məqsədimizə qərb demokratiyasının, ilk növbədə ABŞ-ın yaradımı ilə çata bilərik».

Belə ehtimal olunur ki, kürd siyasiləri Suriya Milli Şurasına etibar etmir. Onlar bu qurumda «müsəlman qardaşları»nın üstünlüyündən ehtiyatlanırlar.

Qeyd edək ki, bu qurumun lideri Abdulbasət Sida da kürddür. Onun ixtisasca qədim mədəniyyətlər mütəxəssisi olduğunu deyirlər. Uzun illər İsveçdə yaşayıb. Ondan əvvəlki lider Burxan Qalnüm Suriyada hakimiyyəti ələ almaq istəyən sünnilərin adamı kimi tanınırdı. Şuranın başına kürdün gətirilməsindən sonra bu etnosa məxsus siyasi qüvvələr öz ideyalarını gerçəkləşdirmək yönündə daha da fəallaşıblar.

Bununla belə, mövcud hakimiyyətə qarşı vuruşan gerçək gücün Suriya Azadlıq Ordusu olduğunu istisna etmək olmaz. Hadisələr İraqdakılara bənzəyir. İraqın şimalında möhkəmlənmiş kürdlər iç savaşdan özlərini qorumağa nail olublar.

Suriyadakı müxalif kürdlərin əksəriyyəti muxtariyyat uğrunda mübarizə apardıqlarını bildiriblər. Suriyada aparıcı siyasi partiyalardan sayılan Kürd Demokratik Birlik Partiyasının İraqın şimalındakı təmsilçisi Mahmudəli Məhəmməd də təmsil olunduğu kürd qurumların əsas hədəflərindən birinin muxatriyyat olduğunu deyib.

«Kürd Demokratik Birlik Partiyası Siyasi bürosunun üzvüyəm. Partiyamızın Kürdüstan Birlik Hərəkatındakı təmsilçisiyəm. Partiyamız 1957-ci ildə qurulub. Onun baş katibi Mühiddin Şeyx Əlidir. Məqsədimiz Suriyada demokratiyanın oturuşması, kürdlərin bir araya gətirilməsi və milli haqlarımızın tanınmasıdır».

Böyük ehtimalla, bu proseslərin nəticəsi olaraq onlar Suriyanın şimalını ələ keçirib, orada muxtariyyat elan edəcəklər. Bununla da özlərini Suriyada gedən etnik və məzhəblərarası savaşdan qoruduqlarını bildirəcəklər.

Ərazisi 185,2 min kv.km., əhalisi 23 milyon nəfər civarında olan Suriyada etnik-məzhəb qruplarının sayı fərqli göstərilir. Məsələn, Mahmudəli Məhəmmədin fikrincə, Hələb də daxil olmaqla Suriyada cəmi 600 min kürd yaşayır. Türklərin, türkmanların sayının isə 2-2,5 milyon olduğu bildirilir.

Türkiyədə fəaliyyət göstərən ORSAM-ın məlumatına əsasən, Suriya əhalisinin 55-60 faizi sünni ərəblər, 12-14 faizi ələvi ərəblər, 10-12 faizi xristianlar, 8-10 faizi kürdlər, 4-5 faizi türkmənlər və 1 faizini ismaililərdir.

Kürdlər əsasən Suriyanın Xasakeh və Qamışlı əyalətlərində yaşayır. «Ərəbləşdirildyi» iddia olunan kürdlərin Hələb, Hama və Dəməşqdə məskunlaşdığı bildirilir.

İraq və Suriyada baş verənlərdən belə qənaətə gəlmək olar ki, Orta Şərqdə baş verənlərdən ilk növbədə kürd etnik qrupu xeyirlə çıxır.

Bu proses ilkin olaraq, Türkiyəyə tətbiq edlib. Türkiyədə hələ oyunlarını gerçəkləşdirə bilməyənlər, rəsmi Ankara ilə «mülayim» davranışa üstünlük verməkdədirlər. Başqa sözlə, belə ehtimal etmək olar - kürdlər və ya onların arxasında duranlar Türkiyə hakimiyyətini inandırıb ki, ölkənin unitarlığının pozulmasına razılıq verməyəcəklər. Ancaq bölgədəki olaylar bunun inandırıcılığına şübhələri artırır. Başqa sözlə, kürdlər İraq və Suriyada oynadığı rolu perspektivdə İranda da təkrarlaya bilər. Bunun ardınca daha «sivil» yolla Türkiyənin gələcəyi ehtimalı az deyil.

Olaylar belə sürətlə davam edərsə, o zaman yaxın on ildə kürdlərin arzusu - «Kürdüstane-Mokriyan» yaranacaq. Hələlik hadisələr bu yönda inkişaf etməkdədir.

*Sədrəddin Soltan*

# BMT baş katibi Bəşər Əsədi tənqid etdi

Əsəd hökumətinin dinc nümayişçilərə basqıları bütün ölkəni bürüyən üsyana yol açıb.

Milli.Az "Amerikanın səsi"nə istinadən bildirir ki, BMT baş katibi Pan Gi Mun Suriya prezidenti Bəşər Əsədi sərt tənqid edərək onun hökumətinin "vətəndaşları qorumadığını" və döyüşlərin "ölkəni dağıtdığını" deyib.

"Suriyada situasiya sürətlə pisləşir, - deyə cənab Pan Xorvatiyaya səfərində bildirib. - Bütün ölkə boyu, o cümlədən paytaxtda döyüşlər intensivləşdikcə çox sayda insan əzab çəkir. Ölənlərin sayının artması və



insanların evlərindən didərgin düşməsi məni narahat edir".

Əsəd hökumətinin dinc nümayişçilərə basqıları bütün ölkəni bürüyən üsyana yol açıb. Suriya boyu vüsət alan döyüşlər ölkənin kürdlər məskunlaşdığı ərazilərinə də yayılıb.

Bir müddət münaqişədən kənarda durmuş kürdlər yaşadıqları ərazilərdə nəzarəti ələ almağa başlayıblar. Kürd Koordinasiya Komitəsi adlanan müxalifət qrupu Amuda və Qobani qəsəbələrinin Azad Kürd Ordusunun nəzarəti altına keçidklərini xəbər verir. Üsyançılar hazırda ən iri kürd şəhərlərindən biri olan Qamışlını tutmağa can atırlar.

# "Türkiyə Suriya ilə sərhəddə PKK-nın qarşısının alınması üçün bütün addımları atacaq"



Türkiyə istər Kürd Fəhlə Partiyası olsun (PKK), istərsə də "Əl-Qaidə" olsun, heç bir təşkilatın Suriya ilə sərhədində yerləşməsinə imkan verməyəcək və bunun qarşısının alınması üçün bütün addımları atacaq. Bunu Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu deyib. Trend-in məlumatına görə, xəbəri "Zaman" qəzeti yayıb.

"Ankara Suriya ilə sərhədində terrorun qarşısının alınması üçün bütün addımları atacaq və təşkilatların Suriyanın şimalında yerləşməsinə imkan verməyəcək", - Davudoğlu bildirib.

XİN rəhbəri qeyd edib ki, Türkiyə Suriyanın şimalında PKK tərəfindən kürd dövlətinin yaradılmasına qarşıdır.

Onun sözlərinə görə, şimali İraqda kürd muxtariyyətinin lideri Məsud Bərzaninin gördüyü tədbirlər terror probleminin həlli üçün yetərli deyil. "Bu həftə İraqın kürd muxtariyyətinə səfər edəcəm və Suriyanın şimalında yaranan situasiyanın həlli yollarının tapılması üçün Bərzani ilə görüş keçirəcəm", - Davudoğlu deyib.

**milli.az**

# BƏŞƏR ƏSƏD KİMYƏVİ SİLAHLARI SƏRHƏDƏ YIĞIB

*Suriya rejiminin dünyanı kütləvi qırğın silahı ilə hədələməsi gərginliyi artırdı, Obama Əsədə xəbərdarlıq etdi, "Azad Suriya Ordusu" silahların yerini bildiyini açıqladı*

Suriya hökuməti rəsmisinin ölkəyə xarici hərbi müdaxilə olacağı təqdirdə kimyəvi silahdan istifadə edəcəyinə dair iyulun 23-də verdiyi bəyanat beynəlxalq birliyin ciddi narahatlığına səbəb olub. Rəsmi Dəməşq KİV-lərin bu bəyanatı təhrif etdiyinə dair yeni açıqlama versə də "Azad Suriya Ordusu" bildirir ki, Əsəd rejiminin kimyəvi silahları hara yerləşdirdiyini bilir.

"Biz "Azad Suriya Ordusu" olaraq bəyan edirik ki, kimyəvi silahların harada yerləşdirildiyinə dair bütün informasiyalara malikik. Konkret olaraq bilirik ki, bir müddət əvvəl kimyəvi silah arsenalı və onun istifadəsi üçün nəzərdə tutulan avadanlıqlar Suriyanın sərhədləri yaxınlığında yerləşən aeroportlara daşınıb" deyə, bəyanatda bildirilir. Qeyd edək ki, bundan əvvəl Amerika kəşfiyyatı da peykdən əldə edilmiş məlumatlara əsasən, Suriyanın kimyəvi silahlarının anbarlardan harasa daşındığını qeydə almışdı.

Suriyanın kimyəvi silahdan xalqa



qarşı istifadəsinin mümkünlüyü ilə bağlı narahatlıqların artması fonunda BMT Baş katibi Ban Ki Mun bəyan edib ki, Dəməşq bu addımın nə ilə nəticələnəcəyini yaxşı hesablamalıdır. Baş katib Suriyanın kütləvi qırğın silahlarının yayılmasına qarşı BMT sənədinə qoşulmadığını da qeyd edib. İsrail baş naziri Benyamin Netanyahu isə deyib ki, Suriyanın kimyəvi silahı "Hizbullah"ın əlinə keçə bilər. "Biz İsraili qorumaq üçün hərəkətə keçməyə hazırıq" deyə, o bildirib. ABŞ prezidenti Barak Obama isə Bəşər Əsədi bu "faciəli səhvdən" çəkinməyə çağırıb. Obama deyib ki, Əsəd onun hərəkətlərini bütün dünyanın izlədiyini bilməlidir və əgər Suriya rejimi kimyəvi silahdan istifadə etsə, beynəlxalq mühakimə ilə üzləşəcək.

Xəbərlərə görə, Suriyada döyüşlər şiddətlə davam etməkdədir. Dəməşq və Hələb şəhərlərində partlayışlar ara vermir. Ötən həftə ölkə üzrə 1200-dən çox adamın öldüyü xəbər verilir. Suriyanın Türkiyə ilə sərhədindəki nəzarət keçid məntəqələri müxalifətçilərin əlindədir, ölkənin kürd bölgələrində də "BƏƏS" rejiminin çökdüyü xəbərləri var. Türkiyə KİV-ləri Suriyanın kürd bölgələrində PKK-çıların nəzarəti ələ aldığını, İraqın şimalındakı kürd muxtariyyətinin rəhbəri Məsud Bərzaninin isə peşmərgə dəstələrini onlara kömək üçün göndərdiyini yazıb. Bərzanı kürd saytlarından birinə açıqlamasında peşmərgələrin Suriyaya göndərildiyini təsdiqləyib. Bu arada Rusiya prezidenti Vladimir Putin bildirib ki, onun ölkəsi istənilən yolla Əsədi hakimiyyətdə saxlamaqda maraqlı deyil, lakin Əsəd hakimiyyətdən qanuni yolla getməlidir. Əks halda, ölkədə vətəndaş müharibəsinin sonu olmayacaq.

# Davudoğlunun qalmaqallı İraq səfəri



Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunun İraqın şimalına, kürd muxtariyyətinin mərkəzi Ərbil və müxtəlif millətlərin kompakt yaşadıqları Kərkükə səfər eyməsi iki ölkə arasında münasibətlərin pisləşməsinə səbəb olub. İraq Xarici İşlər Nazirliyi Davudoğlunun səfərinin İraq hökumətinin məlumatı olmadığı halda gerçəkləşdiyini bildirərərək "milli suverenliyi heçə saymaq və beynəlxalq münasibətlərin əsas prinsiplərini pozmaq nə Türkiyənin nə də başqa bir ölkənin xeyrinə olmaz" məzmunlu bəyanat verdi. Baş nazir Nuri əl Malikinin partiyasından millət vəkili seçilmiş Əbdülhadi əl Həsən isə "Davudoğlu Kərkükə icazəsiz olaraq girib. Buna görə də onu həbs etmək hüququna malikik" deyə İraq hökumətinin etirazını dilə gətirib.

# İran yeni raket sınağı keçirib

*"Fateh 110" raketinin yeni versiyası olan raketin hədəfi vurma qabiliyyəti artırılıb*



İran "Fateh - 110" adlı qısamənzilli ballistik raketinin yeni versiyasını sınaqdan keçirib. Ölkənin müdafiə naziri Əhməd Vahidi 300 kilometr mənzili olan raketlərin dördüncü nəslinin uğurla sınaqdan keçirildiyini bildirib.

Vahidi qurudan quruya, qurudan dənizə atılan və yerli imkanlarla istehsal edilən raketin hədəfi vurma qabiliyyətinin artırıldığını qeyd edib. Raket texnologiyasının müdafiə məqsədli olduğunu söyləyən Vahidi bu cür raketlərdən ölkənin ərazi bütövlüyü ilə mənafelərini təhdid edən hücumlara qarşı istifadə ediləcəyini söyləyib.

# Səudiyyə Ərəbistanı kəşfiyyat rəhbərinin müavini öldürülüb

Deyerler.org Suriyada sui-qəsdini planlaşdıran Bendar ibn Sultanın müavini öldürülüb. "Press TV"nin Yəmənin əl-Fəcr agentliyinə istinadən verdiyi xəbərə görə, paytaxt Ər-Riyadda Səudiyyə rəhbərliyin kəşfiyyat binasına təşkil edilən bombalı hücumda yeni təyin edilən kəşfiyyat rəhbəri Bender ibn Sultan ibn Əbdüləzizin müavini ölüb. Xəbərdə hücumun bazar günü reallaşdırıldığı ifadə edilərkən, hücumun indiyə qədər məxfi saxlandığı ifadə edilir. Ərəbistan kralı Abdullah ibn Əbdüləziz bir neçə gün əvvəl ölkənin kəşfiyyat rəhbəri Moqren ibn Əbdüləzizi vəzifəsindən azad edərək yerinə Amerikaya daha yaxın olan Bender ibn Sultanı bu vəzifəyə təyin edib. Agentliklər daha əvvəl Ərəbistan krallıq ailəsi daxilində ciddi anlaşılmazlıqlar və qarşıdurmaların mövcud olduğunu bildirib.

**Deyerler.org**

# 1905-06-cı illərdə erməni-müsəlman davasında Kürd xalqının rolu

**Əvvəli ötən sayımızda**

Ermənilərdən biri ayağa durub ərz elədi ki, bu böyüklükdə alovun üstünü pərdə ilə necə örtmək olar? Ermənilərin vaveylası aləmi bürümüşdü. Çox böyük hörmətlə cənablarınızdan xahiş eləyirik ki, getməyəsiniz. Bir-iki gün də burda qalasınız. Bəlkə, bu tayfa arasında sülhü bərqərar eləyəsiniz. Ermənının bu müraciətindən sonra müsəlman camaatı da cənab şeyxdən xahiş etdilər ki, Qalada bir neçə gün də qalsın. Bu müraciətlərdən sonra şeyx onların xahişini qəbul edərək bir neçə gün yenə şəhərdə qalmalı oldu. Həmin günün sabahı hər iki tayfanın xahişinə əsasən sülhü bərpa etmək məqsədilə hər tərəfdən iyirmi-otuz adamın iştirakı ilə əvvəl erməni kilsəsinə getdilər. Burada alimlər, xəlifə və keşişlər öz dini qanunqaydaları ilə and içdilər ki, iki millət arasındakı ədavəti qızışdıranların fitvası ilə fitnə-fəsada qoşulmayacaqlar və hər iki tayfa arasında yaradılmış sülhü pozmayacaqlar.

Bundan sonra hər iki firqə birlikdə məscidə gəldilər. Burada xütbələr oxunduqdan sonra cənab qazi müsəlmanları Qur'ani-Şərifə and içdirdi ki, heç kəs bu iki xalq arasındakı əmin-amanlığı pozmayacaq və heç bir fitnə-fəsada bais olmayacaqlar.

Bu andiçmə mərasimindən sonra çox inadkar, nahaq qanlara və fitnə- fəsadlara bais İrəvan əhlindən olan Həmzad adlı bir erməni öz ətrafına onun kimi cəlladları toplayaraq qəfil zəif müsəlman kəndlərinə basqın edirlər. Onlar əvvəlcə kəndin ətrafında olan bir para ot tayalarına od vurub yandırmışdılar. Kənd camaatı bu hücumdan xəbərdar olan kimi kəndin müdafiəsinə qalxaraq düşmənlə vuruş meydanına atılırlar. Ermənilər isə onlardan qorxaraq geri qaçmışlar. Onlar başqa müsəlman kəndlərinə də belə basqınlar edərək xalqın rahatlığına haram qatmışlar. Gah da həmin dəstə Əsgəran bürclərinə girərək gizlicə yoldan gəlib-gedən müsəlmanları namərdliklə vurub öldürürdülər. Öldürdükdən sonra isə qaçıb onun üstündə olan paltarını, pulunu və apardığı malını qarət edib, meyidini yandırırdılar ki, ondan əsər-əlamət qalmasın.

Bundan əvvəl də bu iki tayfa arasında din-məzhəb üstə, yaxud böyük mülklərdən ötrü münaqişə olurdu. Lakin bu cür insafsızlıq və namərdliklər olmurdu. Bu namərd dəstə isə harada əlsiz-ayaqsız adamlar görürdülər, gendən vurub öldürürdülər.

Xaspolad adlı bir müsəlman Qalanın ətrafında yerləşən bir dəyirmanı icarəyə götürmüş və onu bir kişi ilə övrətinə tapşırmışdı. Qarət və qan tökməklə məşğul olan erməni dəstələrinin biri həmin dəyirmana gələrək böyük bir faciə törətmişdilər. Onlar kişini güllə ilə öldürdükdən sonra qucağında dörd aylıq uşaq olan qadına yaxınlaşdılar. Erməni cəlladları onları da öldürmək istəyəndə övrət dedi ki, allah xatirinə məni öldürün, ancaq uşağa əl vurmayın. Ermənilərdən ikisi irəli çıxıb dedilər ki, qorxma, uşağı öldürməyəcəyik. Onlar uşağı qadından alıb bələyini açdılar. Ermənilərin hərəsi uşağın bir ayağından tutub qüvvətlə hərəsi bir tərəfə çəkdilər. Uşaq iki para oldu. İki yerə bölünmüş uşağın parçalarını ananın üstünə atdılar. Ana bu vəhşiliyə dözə bilməyib huşunu itirdi. Cəlladlar bu qadını da bir neçə güllə ilə qətlə yetirdikdən sonra dəyirmanda olan taxılı və unu, eləcə də malı qarət edib apardılar.

**Ə L A V Ə:** Ermənilərin bu qaniçən dəstələri öldürdükləri müsəlmanlara əvvəlcə olmazın işgəncəsini verərək onların diri-diri burnunu, qulağını, ayağını və kişiliyini kəsdikdən sonra öldürür, cəsədini zibillikdə yandırırdılar.

Yuxarıda qeyd olunan 18 nəfər İran fəhlələrini və erməni məhəllələrində 20-yə qədər alver edən müsəlmanları bu cür vəhşiliklərlə qətlə yetirmişdilər.

**Ə L A V Ə:** Erməni tayfasının müsəlmanlara qarşı olan namərdliklərinə dair çox misallar göstərmək olar. Hacı Bəylərin başına gələn müsibət buna bir misal ola bilər. Belə ki, Hacı Bəylər adlı bir müsəlman sövdəgəri Nikolay adlı bir erməni taciri ilə yaxın dostluq edərlərmiş. Onlar yaxın dost olduqlarından bir-birinə deyərlərmiş ki, hərgah ermənilərlə müsəlmanlar arasında dava olarsa, birimizi onlardan qoruyaq.

Bir dəfə ermənilərlə müsəlmanlar arasında dava başlayarkən Nikolay Hacının dükanında olub. Ermənının davadan bərk qorxuya düşdüyünü görən Hacı ona ürək-dirək verərək onu gizlin bir yerə aparır. Nikolayı əmin edir ki, orada onu heç kəs tapa bilməz. Dava qurtardıqdan və hər tərəf sakitləşdikdən sonra Hacı Nikolayı hörmətlə öz evinə yola saldı.

Nikolay Hacıya 93 manat pul verməşdi. Bir gün Hacı bu pulları götürüb Nikolaya qaytarmaq üçün onun dükanına gedir. Hacı pulları sayıb erməniyə verdikdən və bir qədər söhbət etdikdən sonra birdən gurhagur düşdü. Hər tərəfdə böyük iğtişaşlar başlandı. Tüfəng və tapança səsləri bazarı bürüdü. Hacı həyəcanlanaraq iğtişaşın səbəbini Nikolaydan soruşarkən o dedi ki, erməni-müsəlman davası düşdü. Hacı ondan soruşur:

— Bəs mən nə edim?

Hacı fikirləşirdi ki, o, erməni Nikolayı gizlədərək qoruduğu kimi yəqin ki, onu da Nikolay ermənilərdən mühafizə edəcəkdi. Lakin təəssüflər olsun ki, belə olmadı. Birdən Nikolay stolun siyirməsindən bir tapança çıxardıb dabanını çəkdi və tapançanı Hacıya tərəf tuşladı. Tapançanın gülləsi Hacının sinəsinə dəyib bir azca yaraladı. Hacı qanı tökülə-tökülə üz qoydu qaçmağa. Nikolay və onunla başqa ermənilər Hacının arxasınca tüfəngdən və tapançadan iyirmiyə qədər güllə atdılar. Amma xoşbəxtlikdən güllələrin heç biri Hacıya dəymədi. Bu əhvalatı Hacı özü mənə danışmışdır. Ermənilərin belə namərdliklərindən və qəddarlığından yazmaqla qurtaran deyil.



**Ə L A V Ə:** Cavad ağa Paşa ağa oğlu adlı bir nəfər müsəlman həmişə ermənilərə hörmət edir, onlara rəhmlə yanaşardı. Çalışardı ki, ermənilərlə müsəlmanlar arasında həmişə sülh olsun. Buna baxmayaraq, yuxarıda adı çəkilən Həmzad adlı erməni cəlladı öz dəstəsilə Cavad ağanın kəndinə basqın etmişdir. Onlar Cavad ağanın və onun




rəiyyətinin evlərinə və gözəl atlar saxlanılan tövlələrinə od vurub yandırmış, mal-dövlətini qarət etmişlər.

**Ə L A V Ə:** Erməni quldur dəstələri Xanəzək kəndinə də basqın etmişdilər. Məmmədağa Ataxan oğlunun bu kənddə gözəl imarətləri və bağları var idi. Erməni quldurları vəhşicəsinə bu imarətləri dağıtmış, bağların ağaclarını doğramış, evdə olan mal-dövləti qarət etmiş və üç yüz qoyununu aparmışlar.

Onun nökərləri qaçıb canlarını xilas etmişlərsə də, çoban onlardan qurtara bilməmişdir. Quldurlar onu vəhşicəsinə öldürmüşlər.

**Ə L A V Ə:** Bu zaman Qalaya bir adam gəlib xəbər gətirdi ki, erməni quldurlarının bu vəhşiliklərinə son qoymaq üçün hər tərəfdən müsəlman atlıları tökülüb ermənilər yaşayan Sissi kəndinə hücum etmişlər. Kənddə müsəlman atlıları erməni quldurlarının bir neçəsini öldürmüş, bəziləri isə qaçıb canını qurtarmışdı. Müsəlman kəndlərindən qarət edilmiş mal-dövlət geri qaytarılmışdır. Kəndə basqın zamanı müsəlman atlıları övrət-uşağa toxunmamışdılar.

Bundan sonra atlılar Məşhər adlı əksəriyyəti erməni olan kəndə tərəf yönəldilər. Ermənilər müsəlman atlılarına müqavimət göstərə bilməyib hərəsi bir tərəfə qaçdı. Onlar bu kənddə olan heyvanları və bəzi əşyaları özləri ilə qənimət götürüb və iqamətgahlarına göndərdilər. Bir para quldur evlərinə və onların ot tayalarına od vurduqdan sonra atlılar Saru kəndinə tərəf yollandılar. Bu kənddə də müsəlmanlar istədiklərini etdikdən sonra Qarabulaq kəndinə üz qoydular. Oradan isə Xəlifə kəndinə getdilər. Bu kəndlərdə də övrət-uşaqlara əl vurmadan quldurlara divan tutaraq aparılan malların hamısını geri qaytardılar.

**Ə L A V Ə:** Yuxarıda haqqında danışdığımız Həmzad adlı erməni quldu öz dəstəsi ilə yenə gəlib Əsgəran bürclərinə doldular. Onlar bu səngərlərdən namərdcəsinə yolla gəlib-gedən müsəlmanları qəflətən güllə ilə vurub öldürürdülər. Meyidini isə odlayıb yandırırdılar. Həmin gün Mustafa bəy adlı bir nəfər müsəlmanı eləcə öldürdükdən sonra yandırmışdılar. Bu əhvalatdan bir neçə gün sonra, yeni ramazan ayının üçüncü günündə İsa bulağının yaxınlığında meşədə müsəlmanlar üç erməni ilə dalaşırlar. Müsəlmanlar ermənının ikisini öldürür, üçüncüsü isə qaçır. Arxadan atılan güllələrdən ancaq biri qaçan erməniyə dəyib yaralayır. Yaralanmasına baxmayaraq, qaçıb aradan çıxır və özünü şəhərə yetirir. O, şəhərdə fəryad qoparır ki, nə durmusunuz müsəlman atlıları dörd tərəfdən üstümüzə gəlir, yolda da iki ermənini öldürüblər. Mən isə yaralanıb qaçmışam.

Ermənilər onun bu fəryadını eşidən kimi dükan-bazarı şaraqqa-şuruqla bağlayıb qorxu içərisində Qalaya müvəkkil olan qoşun böyüyünün yanına gəldilər və dedilər ki, müsəlmanlar dörd tərəfdən üstümüzə gəlirlər. İki adamımızı öldürüb, birini isə yaralayıblar.

Qoşun böyüyünün əmri ilə əsgərlər dərpal şeypur çaldılar. Qalada nə qədər ki rus qoşunu var idi, hamısı silahlanıb musiqi çala-çala müsəlman bazarına gəldilər. Gördülər ki, bazarda dükanlar açıq, hər kəs də öz işi ilə, alış-verişi ilə məşğuldur. Davadan heç bir əsər-əlamət yoxdur. Rus əsgərləri yenə musiqi çala- çala erməni məhəlləsinə qayıtdılar və ermənilərə bildirdilər ki, onlar öz-özlərindən nahaq yerə belə qorxuya düşüblər.

**Ardı var**

# "Kürdlər Bəşər Əsəddən sonrakı Suriyadan öz paylarını almaq istəyirlər"

Suriyada prezident Bəşər Əsədə sadiq ordu bölmələri və müxalif Suriya Azadlıq Ordusu arasında Dəməşq və Hələbdə qanlı döyüşlər getdiyi bir vaxtda kürd silahlı qruplaşmaları ölkənin şimalında bir çox şəhəri nəzarətə götürməkdə davam edir. Hətta İraqdakı muxtariyyyətdən sonra kürdlərin Suriyada da buna nail olacağı deyilir.

Publika.Az-a açıqlamasında politoloq Elman Nəsirli bildirib ki, İraq və Suriya məsələləri ilə bağlı fərqli situasiya yarandığı üçün bu o qədər real deyil.

Onun fikrincə, Suriya məsələsində önəmli faktor olan Türkiyə İraqa müdaxilə öncəsi tamamilə fərqli mövqe tutmuşdu:

"Bəşər Əsədin Qərbdən, xüsusən Türkiyədən gələn təzyiqlər fonunda əks- təsir elementi kimi kürd faktorundan istifadə edəcəyi, hətta kürdlərin Bəşər Əsədlə əməkdaşlığı ilə bağlı məlumatlar yayılmışdı. İndi isə fərqli bir müstəvidə proseslər cərəyan etməyə başlayıb. Bəşər Əsəd ətrafında həlqə daraldıqca kürdlərin ona qarşı vuruşması göstərir ki, indiki şəraitdə rejimi devirməyə çalışan qüvvələr istənilən qüvvə ilə əməkdaşlıq etməyə hazırdırlar.

Hadisələrin belə inkişafı heç bir halda Türkiyəni narahat etməyə bilməz. Bundan sonra rəsmi Ankara kürd amilini daha çox qabardacaq və



hadisələrin İraqdakı ssenari ilə inkişaf etməməsinə çalışacaq. Çünki, İraqın şimalında faktiki olaraq kürdlərin dövləti formalaşıb, ikincisinin yaranmasına isə heç bir halda Türkiyə razı olmaz.

Qərb də Türkiyənin cənubunda növbəti bir kürd anklavının yaranmasına imkan verməz. Çünki bu Türkiyə-Suriya münasibətlərində ciddi problemlərə səbəb ola bilər. Türkiyə İraq məsələsində Qərbi narazı salacaq addımlar atdı, koalisiya qüvvələrinə öz ərazisindən keçməyə imkan vermədi. Amma indiki halda Türkiyə Suriya məsələsində daha öndədir".

Elman Nəsirli hesab edir ki, hadisələrin bu cür inkişafı Türkiyə üçün gözlənilməz olmamalı idi:

"Hadisələrin belə inkişafı prinsip etibarilə mümkün idi. Bəşər Əsədin Türkiyənin məlum təzyiqlərinə cavab olaraq kürdlərin muxtariyyinə razılıq verəcəyi məsələsi aktuallaşmışdı. Sadəcə, Bəşər Əsədin devrilməsi son dərəcə real səslənir və kürdlər də real situasiyadan çıxış edərək, öz addımlarında düzəliş ediblər. Bəşər Əsədlə danışıqlara getmirlər, onu tərəf kimi qəbul etmirlər, onun əleyhdarı olan qüvvələrlə Bəşər Əsəddən sonrakı Suriyada öz paylarını almaq istəyirlər".

Ekspertlər tərəfindən zaman-zaman belə fikirlər səsləndirib ki, İrana ehtimal olunan hərbi müdaxilə bu ölkədə də kürd problemini aktuallaşdıra bilər. Hətta bu ölkənin bir neçə yerə parçalanacağı və bu ərazilərdən birinin kürdlərin nəzarətinə veriləcəyi ilə bağlı mülahizələr irəli sürülür.

Hədəf seçilmiş qüvvəyə qarşı kürdlərdən qüvvə kimi istifadə olunduğunu deyən politoloq, bununla belə İrandakı kürd muxtariyyətindən sonra Qərbin nə Suriyada, nə də İranda eyni addımı atacağını düşünür:

"Kürdlərə ən böyük güzəşt İraq ərazisində edilib. İraqda kürdlərə verilən güzəştlərin digər ölkələrdə verilməsi mümkün deyil. Bu baş verərsə, regionda qüvvələr balansı son dərəcə pozulmuş olar. Kürd kartından istifadə oluna və onlara müxtəlif vədlər verilə bilər. Amma bu o demək deyil ki, İraqdan sonra Suriya və İranda da kürd muxtariyyəti yaranacaq".

***Ömər Əmirov***



## KÜRD LİDERDƏN ŞOK AÇIQLAMA

Şimali İraq kürd idarəçiliyinin rəhbəri Məsud Bərzani Bəşər Əsədin hakimiyyətdən uzaqlaşdırılması məqsədilə Suriya müxalifətinə hərbi dəstək verir. PİA.AZ Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Bərzaninin yardımı əsasən Suriya kürdləri üçün hesablanıb. Məlumata görə, Şimali İraq Kürd İdarəçiliyinin liderinin tapşırığı əsasında 4 şəhəri ələ keçirən Suriya kürdləri üçün xüsusi olaraq təlimlər də təşkil olunub. "Əl Cəzirə" kanalına verdiyi müsahibədə Bərzani birbaşa olaraq Suriyaya müdaxilə etmək istəmədiklərini də deyib. Kürd lider eyni zamanda Suriya hakimiyyətinin yıxılmağını gözlədiklərini də vurğulayıb.

***pia.az***

## Türkiyə Suriyanın şimalında kürd dövlətinin yaradılmasına yol verməyəcək



Suriyanın şimalında Kürdüstan Fəhlə Partiyası tərəfindən kürd dövlətinin yaradılması Türkiyə üçün terror təhlükəsinin güclənməsi deməkdir və bununla əlaqədar Ankara bu dövlətin yaradılmasına yol verməyəcək. Trend-in məlumatına görə, bunu Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ölkənin "24 TV" telekanalına müsahibəsində deyib. "Biz Suriyanın şimalındakı kürd dövlətini kürd xalqının dövləti kimi qəbul etməyəcəyik. Bu, Türkiyə üçün həssas mövzu olan terror törəməsi olacaq", - Ərdoğan bildirib. Onun sözlərinə görə, Ankara Suriyanın şimalındakı vəziyyəti sakitcə izləməyəcək və mütləq belə bir törəmənin yaranmasına yol verməmək üçün zəruri addımlar atacaq.

Baş nazir onu da bildirib ki, gələn həftə Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu yaranmış vəziyyəti müzakirə etmək üçün Şimali İraq Kürd Muxtariyyətinə səfər edəcək. BMT-nin məlumatına görə, Suriyada münaqişə qurbanlarının ümumi sayı 17 min nəfərdir. 230 minə yaxın insan qaçqına çevrilib, bir milyona yaxın insanın humanitar yardıma ehtiyacı var. Suriya hakimiyyəti bəyan edir ki, onlar yaxşı silahlanmış yaraqlılarla mübarizə aparırlar.

***trend.az***

# Kürdlər Suriyada şəhər almağa gedirlər



Suriyada prezident Bəşər Əsədə sadiq ordu bölmələri və müxalif Suriya Azadlıq Ordusu arasında Dəməşq və Hələbdə qanlı döyüşlər getdiyi bir vaxtda kürd silahlı qruplaşmaları ölkənin şimalında bir çox şəhəri nəzarətə götürməkdə davam edir.

Lent.az-ın verdiyi məlumata görə, Şimali İraq Kürdüstan Muxtariyyətinin rəhbəri Məsud Bərzani ilk dəfə "Əl-Cəzirə" telekanalına müsahibəsində suriyalı kürdlərə hərbi təlim keçdiklərini etiraf edib. Suriyaya iraqlı kürd silahlılarının göndərildiyini təkzib edən Məsud Bərzani deyib ki, Suriyada baş verən proseslərə qarışmaq istəməsələr də, əksəriyyəti Suriya ordusundan qaçaraq, İraqa gələn kürd gənclərə hərbi təlimlər keçirlər. O iddia edib ki, hələ bu kürdlər Suriyaya göndərilməyib, lakin Suriyada ciddi təhlükəsizlik problemi yaranacağı halda ora göndəriləcəklər. Məsud Bərzani bildirib ki, hərbi təlim keçən kürdlər Suriyadakı kürd qrupların az əvvəl yaratdığı Ali Komitənin əmrində olacaqlar: "Hətta buna gərək olmasa belə, o insanlar sonda Suriyaya qayıdacaqlar. Çünki həmin insanlar o bölgənin insanlarıdır".

Lakin informasiya agentliklərində, saytlarda yayımlanan görüntülər Məsud Bərzaninin yalan danışdığını üzə çıxarıb. Görüntülərdə Şimali İraq Kürd Muxtariyyətinin ərazisindəki Zaho şəhərinin içindən keçən Dəclə çayı sahilindəki Dera Bir qəsəbəsində üzərlərində hərbi geyim olan minlərlə kürd gənc yüyürərək Suriya sərhədini keçir. Əllərində silah olmasa da, yüksək təpələrdə bu insanları qoruyan silahlı əsgərlər olduğu da görünür. Görüntünün mobil telefonla çəkildiyi anlaşılır. Həmin kürdlər deyirlər ki, Suriyada kürd muxtariyyətinin mərkəzi kimi gördükləri Qamışlı şəhərini almağa gedirlər...



## Ərdoğan güc strukturlarını təcili bir araya topladı

Ankarada Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə güc strukturları rəhbərlərinin iştirak etdiyi və təhlükəsizlik məsələlərinə həsr olunmuş qapalı toplantı keçirilib.

Türkiyə mətbuatının verdiyi məlumata görə, toplantıya daxili işlər naziri İdris Naim Şahin, müdafiə naziri İsmət Yılmaz, Silahlı Qüvvələrin Baş Qərargah rəisi Necdət Özəl, ölkənin baş kəşfiyyat orqanı – Milli İstihbarat Təşkilatının (MİT) rəhbəri Hakan Fidan, eləcə də baş nazirin müavini Bəşir Atalay və xarici işlər naziri Əhməd Davudoğlu qatılıb.

Yığıncaq 2 saat 15 dəqiqə davam edib. Baş nazir aparatından verilən qısa açıqlamada bildirilib ki, iclasda ölkədəki və regiondakı proseslər, ölkənin milli təhlükəsizliyi ilə bağlı görüləcək tədbirlər müzakirə olunub.

## Türkiyədə hərbi təyyarə qəzaya uğradı



Türkiyənin cənub-şərqində hərbi təyyarə qəzaya uğrayıb. 3 nəfərin həlak olduğu, 4 nəfərin xəsarət aldığı bildirilir. Hərbi mənbələrə görə, insident İraqla sərhəddə yerləşən Hakkari əyalətində baş verib. Bu bölgədə kürd separatçıları ilə mübarizə aparılır. Amma olayın baş verməsi texniki məsələdir. Buna baxmayaraq kürdlər təyyarənin vurulduğunu iddia edirlər. **168.az**

## Sərhəddə 11 tanker yandı

*Sərhəddə neft daşıyan 11 tankerin yanması nəticəsində 5 nəfər də yaralanıb*

İran-İraq sərhədində neft daşıyan 11 tanker yandırılıb. İraqın şimalında yerləşən Regional Kürd Rəhbərliyi məlumat yayıb ki, sərhəddə neft daşıyan 11 tankerin yanması nəticəsində 5 nəfər də yaralanıb. Qeyd edək ki, mövzu ilə bağlı İraqın Daxili İşlər Nazirliyi, İran ilə sərhəd Bəncəvin şəhərindəki tanker qarajında baş verən yanğın zamanı xam neftlə dolu olan 11 tankerin yandırıldığını açıqlayıb.

## İraqda yenə partlayışlar olub

İraqın şimalında partlayışlar nəticəsində 9 nəfər ölüb. Gün.Az "RBK"-ya istinadən xəbər verir ki, terror aktlarından biri Tuz-Xormato şəhərində törədilib. Motosikletə bərkidilmiş partlayıcı qurğu yolda partlayıb. Nəticədə kürd kəşfiyyatının 6 əməkdaşı ölüb. İkinci terror aktı isə Bakuobada baş verib. Burada da polis binasının yaxınlığa saxlanılan mikroavtobus partlayıb. partlayış 3 nəfərin həyatına son qoyub. və 29 nəfər də yaralanıb. **gun.az**

# PKK-nın Suriya qanadı 4 şəhərə nəzarəti ələ keçirib

Suriyada prezident Bəşər Əsədə sadiq ordu bölmələri və müxalif Suriya Azadlıq Ordusu paytaxt Dəməşq və ölkə iqtisadiyyatının paytaxtı sayılan Hələb şəhərində qanlı savaşa başladığı bir vaxtda kürdlər hərəkət keçiblər.

Lent.az-ın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Suriyada PKK təşkilatına yaxın partiyanın silahlıları döyüşsüz 4 şəhərə nəzarəti ələ alıb. Bura Haske əyalətindəki Amude və Derik, Hələb əyalətindəki Kobaini və Afrin şəhərləri daxildir. Xüsusən strateji əhəmiyyətə malik və neft bölgəsi olan Derik şəhərinin kürd silahlılarının nəzarətinə keçməsi diqqət çəkir. Şimali İraq Kürdüstan Muxtariyyətinin rəhbəri Məsud Bərzani təkzib etməyə çalışsa da, İraqdakı kürd silahlılarının Suriyadakı bu bölgələrə göndərildiyi bildirilir. Kürdlər silahlı qüvvələrini cəmləşdirərək gələcəkdə yaradacaqları müstəqil dövlətin mərkəz kimi gördükləri Qamışlı şəhərinə hücuma hazırlaşırlar. Qamışlı şəhəri hələ ki, Bəşər Əsədə sadiq ordu bölmələrinin nəzarətindədir.



Kürd silahlıları nəzarətə götürdükləri şəhərlərə müxalif Suriya Azadlıq Ordusunun da döyüşçülərini buraxmır və bu bölgənin Böyük Kürdüstanın bir parçası olduğunu bəyan edirlər. Bu gün Suriya Azadlıq Ordusunun Səlahəddin Əyyubi Birliyinin komandiri görüntülü bir bəyanat yayaraq, PKK-nın Suriyadakı qanadını təhdid etməsi də diqqət çəkir. O deyib: “Qatil PKK qüvvələrinə xəbərdarlıq edirik, vahid Suriya bizim qırmızı cizgimizdir”.

Xatırladaq ki, ABŞ və müttəfiqləri İraqı işğal edəndən sonra ölkədə müqavimət hərəkatını yatırtmaq üçün məhz kürd kartını işə salıblar. İraqın şimalında Səddam Hüseyn rejiminə qarşı mübarizə aparmış, rəhbəri Cəlal Tələbani olan İraq Kürdüstan Yurdsevərlər Birliyi və rəhbəri Məsud Bərzani olan İraq Kürdüstan Demokrat Partiyasını bir araya gətirərək, Şimali İraq Kürdüstan Muxtariyyətinin yaradılması üçün zəmin hazırlayıblar. Daha sonra da İraq Konstitusiyasında dəyişiklik olunub, muxtariyyətin yaradılması qanuniləşdirilib, Məsud Bərzani muxtariyyətin rəhbəri seçilib, Cəlal Tələbani isə İraq prezidenti postuna gətirilib. Ancaq heç kimə sirr deyil ki, bu gün Şimali İraq Kürdüstan Muxtariyyəti faktiki müstəqil dövlətdir və Türkiyəni parçalamağa çalışan PKK təşkilatının əsas bazaları da məhz Şimali İraq dağlarındadır. Məsud Bərzani Suriyada proseslər başlayan zaman da ortaya çıxıb, ABŞ-a səfər edərək prezident Barak Obama ilə görüşüb. Məhz bu görüşdən bir müddət sonra Suriyada PKK-ya yaxınlığı ilə seçilən partiyanın rəhbərliyini və kürdlərin bölgədəki digər nüfuzlu qruplaşmasının əsas simalarını Ərbildə bir araya gətirib. Həmin görüşdən sonra Türkiyə mətbuatı yazmışdı ki, Məsud Bərzani bu görüşdə ABŞ səfərindən söz açıb, Suriyadakı kürd qrupların Vahid Kürdüstan ideyası ətrafında birgə mübarizəyə başlayacaqları təqdirdə hər cür yardım vəd edib.

Son proseslər isə göstərir ki, Suriyada hakimiyyət və müxalifət arasında qanlı müstəviyə keçən mübarizədə yeganə qansız qazanc əldə edənlər kürdlərdir. Lakin proseslərdən ən çox ziyan çəkənlərdən birinin də bu gün Suriya müxalifətinə ciddi dəstək verən Türkiyənin olacağı qaçılmaz görünür. Çünki Suriyada kürdlər yaşayan bölgələr məhz Türkiyə sərhədi yaxınlığında da yerləşir. Bu bölgələrdə PKK təşkilatının Suriya qanadının üzvlərinin sərbəst hərəkəti nəticəsində bu ərazilərdən Türkiyəyə qarşı aktlarını planlaşdırması asanlaşacaq. Əslində kürdlər üçün bölgədə böyük dövlət qurmaq istəyən böyük güclərin də əsas hədəfinin əslində Türkiyə olduğu sirr deyil...

**Lent.az**

# Əsədin B Planı Hazırdır: Şiə Dövləti

Müxaliflərin hücumları və beynəlxalq təzyiq qarşısında sıxışan Əsədin, ölkəni bölmək istədiyi ortaya çıxdı.

Beynəlxalq təzyiqlər qarşısında sıxışan Suriya lideri Bəşər Əsədin hazırladığı ‘B planı’ istiqamətində Lazikiyə mərkəzli bir şiə-Nusayri dövləti quracağı iddia edildi. Qərb ölkələri, şiddətin davam etdiyi Suriyada Əsəd sonrasını müzakirə edərkən; Əş Şarkül Avsat Qəzetindən təəccüblü bir iddia gəldi.

London mərkəzli qəzet, Suriya Dövlət Başçısı Bəşər Əsədin bir Şiə dövləti qurmağa hazırlaşdığını iddia etdi.

İddiaya görə, müxaliflərin hücumları və beynəlxalq təzyiq qarşısında sıxışan Əsəd, bir ‘B planı’ hazırladı.

Təhlükəsizlik güclərinin Aralıq dənizi sahilindəki şəhərlərə, Xumus, Hula, Əl Haffə və Tiremiseyə istiqamətləmniş hücumların planın bir parçası olduğu və Əsəd rəhbərliyinin məqsədinin Sünni əhalini köçürdübb, Şiə əhalisini çoxaldaraq bölgədəki demoqrafik quruluşu dəyişdirmək olduğu qarşıya qoyuldu.

Qəzetdə yazılan iddiaya görə, Şiə dövlətinin paytaxtının Lazikiyə olması planlaşdırılır.

**‘MƏRKƏZ BANKIN EHTİYATI TARTUSA DAŞINDI’**

Əş Şarkül Avsata müsahibə verən Suriyalı müxaliflərdən də iddianı dəstəkləyici yöndə bir açıqlama gəldi.

Müxaliflər, rəhbərlik əleyhinə nümayişlərin başlamasından sonra mərkəz bankındakı pul ehtiyatının bir hissəsinin Tartusa daşındığını, daşınma hazırlıqları görüldüyünü və təhlükəsizlik mərkəzlərinin qurulduğunu qarşıya qoydu.

**‘KÜRD DÖVLƏTİNƏ ZƏMİN HAZIRLAYIR’**

Mütəxəssislər qurulacaq bir Şiə dövlətinin Kürd dövləti qurulmasına zəmin hazırlayacağını və bunun xəritənin yenidən çəkilməsi mənasını verəcəyini bildirir.

**ABŞ-dan DƏSTƏK**

ABŞ liderliyindəki qərb ölkələrinin bu plana qarşı çıxmadığı, zəif və parçalı bir Orta şərqin İsrailin lehinə olduğu vurğulanır.

**İLK DEYİL**

Suriyada Şiə dövləti qurulması bir ilk deyil. Şiə dövləti ölkənin 1923-cü ildə Fransız mandatına keçməsiylə də gündəmə gəlmişdi. Fransızların 1930-cu ildə qurdurduğu Lazikiyə Bayrağı adındakı dövlət 1936-cı ildə Suriyaya birləşdirilmişdi.

**newspaper.az**

# Cümşüd Nuriyev: "...Bizdən açar dövlət kimi istifadə etmək istəyir"

Siyasi ekspert Cümşüd Nuriyev Publika.Az-ın suallarını cavablandırıb.

**-Bu həftə Vaşinqtonda ABŞ və Azərbaycan arasında təhlükəsizlik və iqtisadi əməkdaşlıq üzrə dialoq keçiriləcək. İndiki halda ABŞ-Azərbaycan münasibətlərini necə dəyərləndirirsiniz?**

-Azərbaycan ABŞ-ın Qafqazdakı siyasi maraqlarını həyata keçirmək üçün çox vacib bir ölkədir. ABŞ da bunu gözəl dərk edir. ABŞ 1997-ci ildə çox ciddi bir layihə hazırlayıb. Bu layihə 2020-ci ilə qədər dünyada siyasi hegemonluğun ələ keçirilməsini nəzərdə tutur. Bundan başqa, 2008-ci ildə hazırlanan yeni bir layihədə İranı parçalamaqla Azərbaycanı böyütmək, yəni Azərbaycanın cənub sərhədinin Urmiya gölü və Həmədandan keçməklə böyük bir Azərbaycan dövləti yaratmaq əskini tapıb. Bu məsələnin önəmi heç də təsadüfi deyil. "Nyu York Tayms"ın yazarı Corc Fridmanın "Növbəti 10 il və 100 il" əsərində də Azərbaycanın ABŞ üçün xüsusi önəmi vurğulanıb. Azərbaycan siyasi hegemonların didişdiyi siyasi bir poliqondur. Amma ABŞ-ın Azərbaycana münasibətində səmimiyyətə inanmıram. ABŞ dünyaya jandarm statusu ilə ağalıq etmək istəyir. ABŞ xarici siyasətində mütləq dəyişiklik etməlidir. Bu ölkə 1990-cı ildə İraq Küveyti işğal edəndə "Səhrada tufan" əməliyyatı keçirdi, 1995-ci Yuqoslaviyada bunu təkrarladı, Bosniya və Hersoqovina ilə yanaş, Kosovanın müstəqilliyini tanıyan ABŞ guya erməni lobbisinin əlində aciz qalıb. ABŞ harada ki, Rusiyanın ciddi maraqları var, orada daha ciddi rol oynayır. Keçiriləcək ABŞ-Azərbaycan dialoqunun da əsas məqsədi Rusiyanı neytrallaşdırmaqdır. Çünki, Azərbaycanın Qərblə yaxınlaşması Rusiyanı qıcıqlandırır.

**-Dialoqun nəticəsi nə ola bilər?**

-Ortaya yeni bir şeyin çıxarılacağı gözlənimir. Çıxarılsa belə, onun elan ediləcəyi mümkün deyil. ABŞ apardığı beynəlxalq danışıqlarda konfidensiallığı sevən bir dövlətdir. ABŞ Azərbaycanı öz yanında görmək istəyirsə, onda mütləq özünün Şərq siyasətinə korrektələr etməlidir. Azərbaycanla səmimi olmalıdır. Azərbaycanın ərazi bütövlüyünü təmin edən dövlət ABŞ ola bilər. Rusiyada iqtisadi problemlər və siyasi qarşıdurma artır. ABŞ dərk etməlidir ki, Rusiya bizim qonşumuzdur və 9 milyon ilə 145 milyonun üzərinə getmək olmaz. Azərbaycanın xarici siyasətində hər hansı bir korrekta



edilməsinə ehtiyac varsa, bunun arxasında mütləq ABŞ-ın qarantiyası olmalıdır. Təbii ki, danışıqlarda bu məsələ də müzakirə olunacaq. Amma mən daha çox ABŞ–ın iqtisadi maraqlarının təmin edilməsi məsələsini gözləyirəm. Azərbaycan ABŞ-ın ən yaxın müttəfiqlərindən biri olan Türkiyəyə tranzit ölkə statusu qazandırmaqla ABŞ-ın istədiyini etdi.

Dialoqdan sonra diqqəti yayındırmaq üçün demokratiya ilə bağlı bəyanat da ola bilər. Amma bu razılaşdırılmış bəyanat olacaq. ABŞ indiyə kimi dünyanı özünə demokratiya zənciri ilə bağlayıb. Bu dünyanı yenidən bölüşdürmək üçün düşünülmüş çox gözəl siyasi texnologiyadır. Bu istiqamətdə ABŞ siyasətinin əvəzi yoxdur. Etiraf edək ki, Azərbaycandakı ABŞ səfirliyi də gözəl işləyir. Hesab edirəm ki, danışıqlarda Azərbaycan bir növ müdafiə statusu ilə çıxış edəcək. Çünki nəyisə ABŞ-dan gizlətmək artıq mümkün deyil.

**-ABŞ-ın Azərbaycanla bağlı siyasi qərarlar qəbul etmək imkanları nə dərəcədədir?**

-Əlbəttə ki, ABŞ-ın imkanları böyükdür. Amma bunu etmir. Hamı gözəl bilir ki, BMT, həmçinin bir sıra beynəlxalq təşkilatlar ABŞ-ın əlindədir. ABŞ Azərbaycanla bağlı hər hansı bir addım atmaq istəyirsə, onda BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal edilmiş əraziləri ilə bağlı qəbul etdiyi qətnamələrin yerinə yetirilməsinə çalışmalıdır. Bunu ən azından Dağlıq Qarabağın ətrafındakı rayonlarla bağlı etməlidir. İndiki halda bu Azərbaycan üçün yeni bir nəfəs olar. Amma hazırda ABŞ Azərbaycanın iqtisadi tərəfdaşıdır, siyasi tərəfdaşı deyil.

**-Coğrafi baxımdan Rusiya və İran arasında yerləşən Azərbaycanın birmənalı olaraq ABŞ-ın yanında yer alması nə kimi risklər doğurur?**

-ABŞ-ın əsas tələbi ondan ibarətdir ki, Azərbaycan İran sərhədindəki 120 kilometrlik sərhəd zonasını onun ixtiyarına versin. Amma Azərbaycanın qanunvericiliyi buna yol vermir. Bizdə qanun qəbul olunub ki, Azərbaycanın ərazisində başqa dövlətin hərbi qüvvələri olmayacaq. Baxmayaraq ki, Qəbələ RLS fəaliyyət göstərir. Bu da qanundakı boşluqdan irəli gəlir. Lazım idi ki, qanunda bu xüsusi əlavə ilə göstərilsin. Qanundakı başqa bir məqam isə odur ki, Azərbaycanın ərazisindən başqa dövlətlərə qarşı istifadə olunmayacaq. Vaxtilə Türkiyə də İraqla bağlı bu addımı atdı. Amma sonra cəzasını çəkdi. Türkiyə ABŞ-ın kəsdiyi cəzanı Suriya ilə bağlı çəkmək istəyir. Təbii ki, Azərbaycanı İranla bağlı məsələlərdə nəyəsə təhrik edə bilərlər. Amma Azərbaycanın belə bir addım atacağı indiki şəraitdə inandırıcı görünmür. Azərbaycan çalışacaq ki, bu məsələdə zaman udsun və yaxud da konkret ABŞ-ın sığortasını istəsin. ABŞ-ın da belə bitr sığortanı verəcəyi inandırıcı görünmür. Çünki ABŞ son 100 il ərzində istər Vyetnam, istər Koreya, istər Əfqanıstan, istər Yuqoslaviya, istərsə də Yaxın Şərq, bir sözlə müdaxilə etdiyi yerlərdə səmimi olmayıb. Axıra qədər öz partnyorlarını qorumayıb. Rusiya da o qədər ciddi partnyor deyil. Amma Azərbaycan 200 il Rusiyanın əsarətində olduğuna görə, bu ölkənin bütün siyasi, hərbi, iqtisadi, mənəvi gedişlərini bilir. Bizim üçün daha asanı Rusiya ilə zaman udmaqdır, nəinki birmənalı şəkildə ABŞ-ın yanında olmaq. Bununla da hər şeyi itirə bilərik. Çünki avtomatik olaraq ermənilərin əli ilə Azərbaycanın Qərb bölgəsi, neft-qaz marşrutları işğal oluna bilər. İnanın ki, Azərbaycan ordusunun da bunun qarşısını almağa gücü çatmaz.

**-Belə çıxır ki, ABŞ istəsə belə, Rusiya amilinə görə, Azərbaycanla münasibətləri müəyyən çərçivədə saxlamağa məcburdur...**

-ABŞ o vaxt bu münasibətləri qura bilər ki, əvvəlcə Ermənistana iqtiasadi sanksiyalar tədbiq etsin, Qərbə çıxışını bağlasın, bütün hesabları dondursun. Belə olan halda Ermənistan bir aydan sonra özü Azərbaycan ərazilərindən çıxıb gedəcək. Ermənistanı bu günə kimi saxlayan ABŞ və Fransadakı erməni lobbisidir. Rusiyanın verdiyi 500 milyon dollarla Ermənistanı saxlamaq olmaz. Rusiya amili olmasa belə, ABŞ istəsə də Azərbaycanla yüksək səviyyədə əməkdaşlıq qura bilməz. ABŞ Azərbaycandan bölgədə açar dövlət kimi istifadə etmək istəyirsə, Azərbaycanın ən böyük problemini həll etməlidir. Əks halda ABŞ-ın səmimiyyətinə inanmaq olmaz.

*Ömər Əmirov*



## Bərzani: "Bizə müharibə elan olunub"

*Bölgədə kürdlərin lideri olan Məsud Bərzani, İraq rəhbərliyini tənqid edib*

Şimali İraq Regional Rəhbərliyi, neft nəqli və Suriya siyasətiylə bağlı rəsmi Bağdadı tənqid edib. Bölgədə kürdlərin lideri olan Məsud Bərzani, İraq rəhbərliyi ilə artan təzyiq mövzusunda bildirib ki, neft razılaşmasından əldə olunan gəlirin dövlət büdcəsinə daxil olması müharibə elanıdır.

Qeyd edək ki, Şimali İraqda Kürd Regional Rəhbərliyinin başçısı Məsud Bərzani "Əl-Cəzirə" kanalına verdiyi açıqlamasında bildirib ki: "Əgər İraq hökuməti, Türkiyə ilə aramızda olan neft razılaşması üzündən regional rəhbərliyə büdcədən edilən ödəmələrdə kəsintiyə yol verərsə, bunu müharibə elanı sayacağıq."

